Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 187 (8210) ÇƏRŞƏNBƏ, 28 avqust 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# 167 yeni növ məhsul, 10 milyard dollarlıq ixrac

## Prezident İlham Əliyevin "Made in Azerbaijan" brendinin təşviqinə dair qəbul etdiyi qərarlarla ölkəmiz dünyanın 170-dən çox dövləti ilə ticarət əlaqəsi yaradıb

Bir zamanlar iqtisadiyyatının əsas hissəsi idxaldan asılı olan Azərbaycan bu gün həm neft-qaz, həm də qeyri-neft məhsulları ixracatçısı kimi tanınır. Ölkəmiz dünya bazarına "Made in Azerbaijan" brendi ilə müxtəlif çeşiddə məhsullar ixrac edir. Hazırda dünyanın 170-dən çox dövləti ilə münasibət yaradan Azərbaycan xarici iqtisadi əlaqələrin mühüm tərkib hissəsi olan ticarət fəaliyyətini tənzimləyən qanunvericiliyini daha da təkmilləşdirir.




Son 16 ildə Azərbaycanda sahibkarlığın inkişafı, biznes mühitinin davamlı olaraq yaxşılaşdırılması istiqamətində görülən işlər, xüsusən də Prezident İlham Əliyevin iqtisadi islahatlar paketi çərçivəsində qəbul etdiyi qərarlar öz bəhrəsini verməkdədir. Hazırda Azərbaycan məhsullarının ixrac coğrafiyasının genişləndirilməsi məqsədilə intensiv tədbirlər həyata keçirilir, xarici ölkələrdə ticarət evləri açılır, ardıcıl olaraq ixrac missiyaları təşkil edilir, nüfuzlu beynəlxalq sərgilərdə Azərbaycan şirkətlərinin iştirakı təmin olunur.

Həyata keçirilən islahatlar geniş vüsət aldıqca, Azərbaycanın dünyanın əksər ölkələri ilə ticarət dövriyyələri artır. Bunun müqabilində yeni ticarət müqavilələri bağlanır. Statistik göstəricilərə nəzər yetirsək görərik ki, "Azexport" portalının fəaliyyəti sayəsində ixrac edilən məhsulların həm coğrafiyası genişlənir, həm də çeşidi getdikcə artır. Məsələn, bu ilin 6 ayında Azərbaycanın ixracı 9,98 milyard dollar təşkil edib və bu, ötən ilin müvafiq dövrünə nisbətən 1,3 milyard dollar çoxdur. Ümumiyyətlə isə 2017-ci ilin yanvar ayından 2019-cu ilin 30 iyun tarixinə kimi (30 ay ərzində) "Azexport" portalına dünyanın 133 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 1 292,2 milyon dollar təşkil edib.

Bütün bu reallıqları şərtləndirən amil əlbəttə ki, ölkədə sahibkarlıq subyektləri üçün yaradılan əlverişli biznes mühiti, tətbiq edilən güzəştlər, uzunmüddətli kreditlərin verilməsi və digər imtiyazlardır.

Prezident İlham Əliyev iyulun 31-də keçirdiyi müşavirədə biznes mühitinin yaxşılaşdırılması məsələsinə toxunaraq görülən işlərin real nəticələri barədə məlumat vermişdi: "Biznes mühitinin yaxşılaşdırılması istiqamətində aparılan işlər bunu göstərir ki, bu gün iqtisadi sahədə Azərbaycan dünya miqyasında uğurla inkişaf edən ölkələr sırasındadır. Bununla paralel olaraq, biz sosial sahəyə də çox böyük diqqət göstəririk. Bu il reallaşan layihələr - milyardlarla dollar həcmində ölçülən bu layihələr, bu təşəbbüslər bizim niyyətimizi, bizim siyasətimizi göstərir".

Hələ illər öncə qeyri-neft sektorunun davamlı inkişafı ilə bağlı cənab İlham Əliyevin irəli sürdüyü təşəbbüslərin artıq reallığa çevrilməsi Azərbaycanın xarici ticarət tərəfdaşlarının sayını da ildən-ilə artırır. Tərəfdaşlar artdıqca istehsal edilən qeyri-neft məhsullarının çeşidi də çoxalır. Artıq Azərbaycan 167 yeni növ məhsulun ixracına başlayıb, ixrac olunan qeyri-neft məhsullarının çeşidi 3 mini ötüb. Qeyri-neft ixracında isə 452 milyon dollarlıq artımın 60 milyon dollarlıq hissəsi yeni məhsulların ixracı hesabına formalaşıb.

Ölkə iqtisadiyyatında müəyyənləşdirilmiş hədəflərə çatmaq üçün islahatlar bir-biri ilə sıx əlaqələndirilir. Bu islahatlar daxili tələbatın ödənilməsi, idxaldan asılılığı azaltmaqla yanaşı, ixrac imkanlarının genişlənməsini də şərtləndirir. Qeyri-neft məhsulları ixracının stimullaşdırılması məqsədilə "Made in Azerbaijan" brendinin təbliği ilə bağlı dəstək tədbirləri həyata keçirilir, dövlət vəsaiti hesabına sahibkarlar ixrac missiyalarında, beynəlxalq sərgilərdə iştirak edirlər. İxracatçıların potensial müştərilərlə, xüsusilə idxalçı və distribüterlərlə əlaqələrinin qurulması məqsədilə bu il Çin, Polşa, Latviya, Qətər, İsveçrə və Rusiyaya ixrac missiyaları təşkil olunub. Bu tədbirlər çərçivəsində Azərbaycan məhsullarının ixracına dair razılaşmalar və sifarişlər əldə edilib, müqavilələr imzalanıb. Eyni zamanda bir sıra məhsulların ixracatçılarına ixrac təşviqi ödənilir. 2019-cu ilin 6 ayı ərzində ixracatçılara 5 milyon manatdan artıq, ümumilikdə isə 2016-cı ilin mart ayından bu günədək 14 milyon manatdan çox ixrac təşviqi ödənilib. Bu mexanizm çərçivəsində Almaniya, Rusiya, Çin, Polşa, İtaliya, Qazaxıstan, Litva, Cənubi Koreya, Yunanıstan, Kanada, Avstraliya, Malayziya, ABŞ, Yaponiya, Səudiyyə Ərəbistanı və digər ölkələrə 210 milyon dollardan çox qeyri-neft məhsulunun ixracı stimullaşdırılıb.

Həmçinin ixracın stimullaşdırılması tədbirləri çərçivəsində prosedurlar sadələşdirilir, yerli məhsullarımızın ixrac potensialı yüksək olan ölkələrdə ticarət nümayəndələri fəaliyyət göstərir, ticarət və şərab evlərinin yaradılması ilə bağlı işlər davam etdirilir. Azərbaycanın xarici ölkələrdə 10 ticarət və şərab evi açılıb, Rusiya, Qazaxıstan və digər ölkələrdə ticarət evlərinin açılması ilə bağlı işlər görülür. Həmçinin Rusiyanın Moskva şəhərində 15 Azərbaycan şirkəti tərəfindən istehsal olunan 200-dən çox çeşiddə məhsulun təqdim olunduğu "Azərbaycan nemətləri" mağazası fəaliyyətə başlayıb, Sankt-Peterburq, Yekaterinburq və digər şəhərlərdə də bu cür mağazaların açılması istiqamətində işlər aparılır.

Eyni zamanda Rusiya Federasiyası, Çin Xalq Respublikası, Birləşmiş Ərəb Əmirlikləri və Mərkəzi Avropa ölkələri üzrə Azərbaycanın ticarət nümayəndələri fəaliyyət göstərir ki, bu mexanizmlər xaricdə ölkəmizin iqtisadi maraqlarının təmin olunmasında, xarici investorların cəlb edilməsində, potensial alıcılarla əlaqələrin qurulmasında mühüm rol oynayır.

Ardı 4-cü səh.



# Milli dövlətçilik tariximizdə bir ilk

Deyirlər ki, insanın məsuliyyəti onun dünyaya gəldiyi andan başlayır. Bu statusla hər kəs bəşəriyyətin gələcəyinə görə cavabdehlik daşıyır, taleyi onun çiyinlərinə ali missiya qoyur. Amma kimsə öz məsuliyyətini dərk edib bu missiyanı yerinə yetirir, mənalı həyatı ilə bəşər səadətinin sərhədlərini genişləndirir, kimsə ona əta edilmiş ömrü təəssüf ki, boş-boşuna yaşayır. Bu məsuliyyət, müqəddəs borc ilk növbədə anadan, onun tərbiyəsindən asılı olur.

Hər bir insanın həyatdakı yerini və rolunu, ictimai statusunu, cəmiyyətdəki mövqeyini müəyyənləşdirən də onun dərk edilmiş məsuliyyətə əsaslanan fəaliyyətidir. Dünya intibahını yaradan da məhz belə şəxsiyyətlərdir. Onlar həyatın mənasını haqlı olaraq elm və təhsildə, mədəni tərəqqidə axtarırlar, xalqın milli-mənəvi irsinin qorunmasına töhfələr verirlər, saf idealların cəmiyyətdə hakim olmasına çalışırlar. Beləliklə, özləri də ucaldıqca ucalırlar.

"Həyatda nə böyük, nə də kiçik rollar olmur. Öz həyat kitabını yazmağa ancaq sənin şəxsi, dərk edilmiş məsuliyyətin imkan verir. Bu kitabda hər bir kəs özünü şəxsi həyatının və dünyanın qurub-yaradıcısı, yaxud dağıdıcısı kimi təcəssüm etdirir. Kimsənsə, elə də olmalısan - bax, budur bizim həyatımız". Onun həyat qayəsi belədir!

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva məhz belə bir həyat formulu, malik olduğu nadir dəyərlər, nəcib fəaliyyətilə insanlığın, bəşəri dəyərlərin ali mərtəbəsinə ucalıb.

### Elçi

Elçi çox qədimlərdən insanların ali məqsəd və məramlarını bir-birinə yetirən, birlik, həmrəylik yaratmaq, "körpü" qurmaq məqsədi daşıyan və xeyirxahlıq məramı ilə yaşayan ali məqamlı insanlara deyilib.

Elçi sözü dilimizdəki müsbət enerjili, dərin məna tutumlu ən qədim kəlmələrdəndir. Bu söz bir tərəfdən toplumun təmsilçisi, onun arzu və ümidlərini, qayğılarını ünvana çatdıran humanizm məzmunu daşıyır, digər tərəfdən isə öz həyatını xeyirxahlığa xidmətdə yaşayan, eli düşünən, el üçün çalışan yetkin bir insan anlamını verir. Bu kəlmənin hər iki mənası Mehriban xanım Əliyevanın həyat və fəaliyyətində özünü bütün tamlığı ilə doğruldur. O, UNESKO və ISESCO-nun xoşməramlı səfiri, fədakar elçisidir.

Bu şərəfli ada indiyədək dünyanın ən məşhur şəxsləri - Mstislav Rostropoviç, Lalla Məryəm, Valdis Adamkus, Mariya Tereza, Klaudiya Kardinale və başqaları layiq görülmüşlər.

Ardı 3-cü səh.

# Azərbaycan polisi Avropa polisindən də üstün və peşəkardır

## Həm sabitliyin təminatı və cinayətkarlığa qarşı effektiv mübarizəyə, həm də vətəndaş məmnunluğuna görə…

**İctimai sabitlik, asayiş, milli təhlükəsizlik hər bir dövlətin mövcudluğunun əsas şərti olmaqla bərabər inkişafının vacib zəmini, vətəndaş rifahının mühüm amilidir. Son onillikdə biri-birinin ardınca tənəzzülə uğrayan, əhalisi savaşlarda, terrorda məhv edilən, ən yaxşı halda miqranta çevrilən ölkələrin timsalında bu həqiqəti aydın görmək olar.**



### "Qoca qitənin" kriminal siması

Bu baxımdan Azərbaycan nümunəsi dünyada ən yaxşılardan biri sayılır. Sabitlik adasına çevrilən məmləkətimizdə kompleks halda ictimai təhlükəsizlik mükəmməl səviyyədə qorunur, fərdi hallarda isə vətəndaşın həyatı, mülkiyyəti, əmlakı etibarlı mühafizə olunur. Digər ölkələrlə eyni vəziyyətin müqayisəsi Azərbaycanın üstünlüyünü aşkar nümayiş etdirir və ölkəmizin kriminogen vəziyyətə tam nəzarət, asayişin təmini sahəsində də örnək model yaratdığını göstərir.

Xarici ölkələrə səfərlər müddətində apardığımız müşahidələr ilə də bu təəssürat əyani dolğunlaşır. Lakin bəzən xaricdə elə xoşagəlməz halla üzləşirsən ki, nəinki Azərbaycandakı vəziyyətin daha yaxşı olmasına inanırsan, hətta çox hallarda həsəd apardığımız Avropanın, əslində, nəzarətsizlik nəticəsində total cinayətkarlıq yuvasına çevrildiyinə əmin olursan. Elə "Avropanın ən təhlükəsiz, sabit ölkəsi" kimi qəbul edilən Monteneqroda başımıza gələn hadisələr "qoca qitənin" kriminal məkana çevrildiyini, ən əsası isə hüquq mühafizə orqanlarının bu hallara qarşı əsla mübarizə aparmadığını bir daha təsdiqlədi.

Ardı 4-cü səh.



# Dövlətdən fermerlərə növbəti güclü dəstək

## Aqrar sığorta məhsul istehsalçılarını ziyandan qoruyan "çətir" olacaq

"Aqrar sığorta haqqında" qanunun qəbul edilməsi və Aqrar Sığorta Fondunun yaradılması ölkənin kənd təsərrüfatının sürətli inkişafını, islahatların dərinləşməsini təmin edən ciddi addımlardır.

Bu iki sənəd yeni aqrar sığorta münasibətlərinin işlənilib tətbiq edilməsini nəzərdə tutur. Bununla ölkədə kənd təsərrüfatının inkişafı yeni mərhələyə qədəm qoyur və bu mərhələ fermerlərin risklərdən qorunmasının dünyanın ən mütərəqqi təcrübəsi əsasında təşkil edilməsi ilə başlayır.

Aqrar sığorta mexanizminin hazırlanması Kənd Təsərrüfatı Nazirliyinin rəhbərliyi altında həyata keçirilmiş və bu zaman Maliyyə, İqtisadiyyat, Ədliyyə nazirlikləri, Maliyyə Bazarlarına Nəzarət Palatası və Əmlak Məsələləri Dövlət Komitəsinin nümayəndələri işçi qrupuna cəlb edilmişlər. İşçi qrupu qanunu hazırlayarkən dünyada mövcud olan aqrar sığorta modellərini, mütərəqqi kənd təsərrüfatı sığortası sistemi olan ABŞ, Kanada, İspaniya kimi ölkələrin qabaqcıl təcrübəsini araşdırmış, aparıcı mütəxəssislərlə müzakirələr aparmışdır.

Ardı 5-ci səh.

# Ermənistan ordusunda intihar və fərarilik halları çoxalıb

## Son 6 ayda işğalçı ölkədə qeyri-döyüş şəraitində ölən əsgərlərin sayı 33-ə çatıb

Ermənistanda bütün sahələr üzrə özünü getdikcə daha qabarıq formada büruzə verən tənəzzül bu ölkənin ordusunda da acınacaqlı durumun formalaşması ilə müşayiət olunur.

Orduda korrupsiya, rüşvətxorluq, özbaşınalıq geniş vüsət alıb. Cəmiyyətdə olan neqativ tendensiyalar ordunu da bürüyüb. Son altı ayın statistikasına görə, orduda qeyri-döyüş şəraitində ölən əsgərlərin sayı 33-ə çatıb. Onlardan 14-ü hərbi hissələrdəki özbaşınalığa dözə bilməyərək intihar edib.

İndi Ermənistanda belə bir fikir hakimdir ki, orduda zabitlər əsgərlərə vətənin müdafiəçiləri kimi deyil, şəxsi varlanmalarını təmin edən obyekt kimi baxırlar.

O da vurğulanır ki, Ermənistan Müdafiə Nazirliyi heç də bütün insidentlər haqda məlumat vermir, bəzi hallar naməlum olaraq qalır. İctimaiyyətin etirazlarına baxmayaraq, vəziyyət dəyişmir, Ermənistan rəhbərliyi baş verən mənfi halların qarşısını almağa cəhd etsə də, buna nail ola bilmir. Nəticədə Ermənistan ordusunda hərbi nizam-intizam, əsgər və zabitlərin döyüş bacarığı əvvəlki kimi çox aşağıdır.

Ardı 6-cı səh.

## Azərbaycan Respublikasının Birinci vitse-prezidenti zati-aliləri xanım Mehriban Arif qızı Əliyevaya

Hörmətli Mehriban Arif qızı!

Ad gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Yüksək peşəkarlıq və insani keyfiyyətləriniz, böyük idarəçilik və siyasi təcrübəniz Sizə təkcə öz ölkənizdə deyil, onun hüdudlarından kənarda da layiqli nüfuz qazandırıb.

Qazaxıstanda Sizi xeyirxah qardaşlıq və mənəvi birlik ənənələrinə əsaslanan Qazaxıstan-Azərbaycan münasibətlərinin möhkəmlənməsinin ardıcıl tərəfdarı kimi tanıyır və hörmət edirlər.

Bizim aramızda formalaşmış etimadı və qarşılıqlı ehtiramı yüksək qiymətləndirirəm.

Əminəm ki, ölkələrimizin konstruktiv əməkdaşlığı Sizin köməyinizlə qardaş xalqlarımızın tərəqqisi naminə bundan sonra da məhsuldar inkişaf edəcək.

Hörmətli Mehriban Arif qızı, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, rifah və məsuliyyətli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Dariqa NAZARBAYEVA,***
***Qazaxıstan Respublikası Parlamenti Senatının sədri***

*Nur-Sultan şəhəri, 26 avqust 2019-cu il*

---

Hörmətli Mehriban Arif qızı!

Ad gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Fəal çoxşaxəli şəxsiyyət kimi Siz həmişə öz doğma ölkənizin ictimai-siyasi həyatının mərkəzində olmusunuz və ömrünüzün bu gözəl gününü Azərbaycanın Birinci vitse-prezidenti kimi məsul vəzifədə qarşılamağınız qanunauyğundur.

Qoy geniş bilik və maraq dairəniz, yaradıcılıq enerjiniz, respublikanın tərəqqisi naminə qurub-yaratmaq əzminiz Sizin məhsuldar dövləti fəaliyyətinizin əsasına çevrilsin, vətəndaşlar arasında yüksək nüfuzunuz və Azərbaycanın dövlət başçısının dəstəyi isə ən böyük və nəcib məqsədlərə çatmaqda Sizə kömək olsun.

Sizə səmimi-qəlbdən cansağlığı, xoşbəxtlik, bütün işlərinizdə və təşəbbüslərinizdə uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Rüstəm MİNNİXANOV,***
***Rusiya Federasiyası Tatarıstan Respublikasının Prezidenti***

---

Hörmətli Mehriban xanım!

İcazə verin, Türkdilli Ölkələrin Parlament Assambleyasının Katibliyi adından və şəxsən öz adımdan Sizi ad gününüz münasibətilə səmimi-qəlbdən təbrik edim.

Arzu edirik ki, həmişə bu cür parlaq və güclü şəxsiyyət olasınız, var olasınız və bu dünyaya xeyirxahlıq və sevgi gətirməyə davam edəsiniz.

Bu xoş fürsətdən istifadə edərək, əsas məramı xeyirxah dünyada, tam mehriban şəraitdə, ölkələrimiz və xalqlarımız arasında qurub-yaratmaq üzrə əməkdaşlığın olduğu dünyada yaşamaq olan və bu cür də qalan TÜRKPA-nın fəaliyyətini dəstəklədiyinizə görə Sizə ən səmimi minnətdarlığımızı bildirmək istəyirik.

Qoy hər gün Sizə sülh, harmoniya, güc, ümid və sevinc gətirsin.

*Hörmətlə,*

***Altınbek MAMAYUSUPOV,***
***Türkdilli Ölkələrin Parlament Assambleyasının Baş katibi***

# "The Washington Times" qəzeti Azərbaycanın birinci xanımının nəcib təşəbbüsündən yazıb

ABŞ-da çıxan "The Washington Times" qəzetində "Caspian Group Holdings"in baş direktoru Rob Sobhaninin "Mehriban Əliyeva: ağacəkmə layihəsi ilə tanınan Azərbaycanın birinci xanımı" sərlövhəli məqaləsi dərc olunub.




AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycanın Birinci vitse-prezidenti və birinci xanımı Mehriban Əliyevanın meşəsalma yolu ilə ölkənin ekologiyasının yaxşılaşdırılması və vətəndaşların rifahının artırılması səylərindən danışılır.

Müəllif yazır ki, Amerika cəmiyyətinin iqlim dəyişmələrinin nəticələrinə qarşı mübarizə tədbirlərinin müzakirəsini davam etdirdiyi bir vaxtda Azərbaycanın birinci xanımının həyata keçirdiyi layihələr parnik qazları tullantıları problemini siyasiləşdirmədən onun həllində bütün dünya üçün model ola bilər. Bu strategiya meşəsalmanın miqyasının genişləndirilməsindən ibarətdir.

R.Sobhani qeyd edir ki, Azərbaycanda ilk dəfə 1990-cı ildə olub və müstəqilliyini 1991-ci ildə bərpa etmiş bu ölkənin ekoloji sisteminin sovet dönəmində dağılmasının şahidi olub. Atmosferdə çirkləndirici maddələrin yüksək səviyyəsi müşahidə olunur, aeroportdan paytaxt Bakının mərkəzinə gedən yolun kənarlarında ağaclar gözə dəymir, əvəzində xam neft "gölməçələri" görünürdü. Müəllifin yazdığına görə, təəssüf ki, Moskvanın mərkəzi hakimiyyət orqanları əsasən müsəlmanlardan ibarət 9 milyon əhalisi olan bu sovet respublikasının gözəl landşaftını da onun əlindən almışdı.

Mehriban xanım Əliyevanın sayəsində bu gün Azərbaycan hər bir açıq məkanda ağacəkmə yolu ilə ekoloji sağlamlaşdırma dövrünü yaşayır. İndi aeroportdan Bakının mərkəzinə gedən yolboyu gözəl ağaclar əkilib. Ətraf mühitin vəziyyətinin bu şəkildə dəyişməsi ilə yanaşı, Azərbaycan bu uzaqgörən layihə ilə dünyaya həm də sensasiya yaratmadan iqlim dəyişikliklərinə qarşı mübarizəni aparmaq yollarını nümayiş etdirir. Ağaclar atmosferi oksigenlə zənginləşdirməklə iqlim dəyişmələrinin nəticələrini dayandırmağa kömək edir.

Azərbaycanda ağacəkmə təkcə ətraf mühitin sovet dövründən qalma tənəzzülünə qarşı mübarizə vasitəsi deyil, o, həm də ictimai səhiyyə ilə birbaşa bağlıdır. Harvard Universitetinin ətraf mühitin gigiyenası üzrə eksperti Linda Tomassonun sözlərinə görə, ağacəkmənin sağlamlıq üçün çox böyük faydası var və havanın çirklənməsi ilə ağciyər xəstəlikləri arasında əlaqəni azalda bilər. Təəccüblü deyil ki, Azərbaycanda havanı zərərli hissəciklərdən təmizləmək üçün daha çox enliyarpaqlı ağaclar əkilir.

R.Sobhani qeyd edir ki, Azərbaycanın birinci xanımını ağacəkmə layihələrini həyata keçirməyə sövq edən daha bir səbəb iqtisadi amildir. Ağacların əkilməsi, onlara qulluq və nəzarət edilməsi üçün yerli sakinlərin işə götürülməsi layiqli gəlir təmin edə bilər. IDEA İctimai Birliyi ağacəkməni gənclərin hüquq və imkanlarının genişləndirilməsi üçün gözəl şans sayır. Təəccüblü deyil ki, "Coca-Cola" 2020-ci ilə qədər 100 min ağac əkmək üçün ADA Universiteti ilə tərəfdaşlıq sazişi imzalayıb. Bu yaxınlarda Mozambikdə 2,2 milyon ağacın əkilməsini bayram edən ABŞ-ın "Eden Projects" xeyriyyə təşkilatının layihələri Mehriban Əliyevanın ağacəkmə təşəbbüslərinin səmərəliliyinin və bu təşəbbüslərin iş yerlərinin yaradılmasına qlobal təsirinin təsdiqidir. Təşkilatın baş direktoru Stiv Fitçin sözlərinə görə, ağacəkmə yerli kəndlərdə məşğulluğu artırıb.

Mehriban Əliyevanın ağacəkmə kampaniyasının qlobal nəticələri dərhal görünməsə də, potensialı çox böyükdür. Məsələn, Asiya və Afrikanın az inkişaf etmiş dövlətlərində çox vaxt elə şərait yaranır ki, işsiz cavanlar arasında radikalizm meyilləri güclənir. Ağacəkmə nəticəsində əldə edilən fundamental fayda iş yerlərinin davamlı artmasının əsasını qoya bilər. Ağacəkmə meşəsizləşmənin qarşısının alınmasında, ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynaya bilər.

Azərbaycanın birinci xanımının bu təşəbbüsünün qlobal miqyasda dini dözümlülüyün, qarşılıqlı anlaşmanın və əməkdaşlığın təşəkkülünə kömək etməsi bu kampaniyanın daha bir nəticəsidir. Dünyanın bütün əsas dinləri ağacların əkilməsini və onlara qulluq edilməsini savab iş sayır. Məsələn, yəhudilikdə Tu bi-Şvat deyilən ağacəkmə bayramı var. Quran və hədislərdə Allahın adı ilə ağac əkilməsi tez-tez xatırlanır. Bibliyada ağaclar "yaxşı qida"ya kömək edən vasitə kimi (Yaradılış 2:9) xatırlanır. Qlobal ağacəkmə kampaniyası müxtəlif etiqad və inancları olan xalqları birləşdirə bilər. Vos Fondunun məlumatına görə, bir ağacın əkilməsinin qiyməti 10 sentdən baha deyil və deməli, 1 trilyon ağacın əkilməsi 100 milyard dollara başa gələcək ki, bu da hazırda dünyanın 10 aparıcı suveren xeyriyyə fondunun sərəncamında olan 6 trilyon dollardan çox məbləğin müəyyən qismini təşkil edir.

Rob Sobhani sonda yazır ki, dünya liderlərinin bütün dünyada və öz ölkələrində ağaclar əkməklə iqlim dəyişmələri probleminin həllinin bu sağlam və səmərəli üsulunu tətbiq etmələrinin vaxtı çatıb.

# Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və Elmi-Dini Şura Məhərrəmlik ayı ilə bağlı fətva verib

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurası və Elmi-Dini Şura avqustun 27-də Məhərrəmlik ayı ilə bağlı fətva verib. Bu barədə AZƏRTAC-a QMİ-nin mətbuat xidmətindən məlumat verilib.

Fətvada deyilir: "Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və Elmi-Dini Şura bəyan edir ki, hicri 1441-ci ilin başlanğıcı - Məhərrəm ayının 1-i miladi təqvimlə 2019-cu il sentyabrın 1-nə, Aşura günü isə sentyabrın 10-na təsadüf edəcək.

Tarixboyu bütün səmavi dinlər tərəfindən sülh və əmin-amanlıq ayı kimi qəbul edilən Məhərrəmin onuncu günü olan Aşura əfsus ki, hicri 61-ci ildən şəhadət və hüzn günü kimi yad edilir. Aşura hadisəsində Müaviyə oğlu Yezidin göstərişi ilə Həzrət Peyğəmbərin (s) nəvəsi və səhabəsi İmam Hüseyn (ə), o Həzrətin (s) digər səhabələri, Əhli-Beyt və tərəfdarları Kərbəla çölündə şəhid edilib, ailələri əsir alınıb. Bununla yanaşı, İmamın (ə) haqq-ədalət naminə şəhadəti bəşəriyyət və insanlıq üçün mənəvi kamillik, dirçəliş nümunəsidir. Odur ki, İmam Hüseyn (ə) əzadarlığı ölkəmizdə də bədbinlik və ümidsizliyə deyil, Vətən və iman sevgisinə, işğal olunmuş Qarabağ torpaqlarının azad edilməsi uğrunda mübarizəyə çağırış ruhunda olmalıdır.

Təziyə mərasimlərində şəhidlərimizi yad etmək, əzəli torpaqlarımızın işğaldan azad olunmasını dua etmək müqəddəs borcumuzdur. Dindarlarımız müsəlman tarixində kədərli, lakin şərəf və qürur nümunəsi kimi yer alan Kərbəla faciəsinin, eləcə də İmam Hüseynin (ə) həyat və şəhadətinin yad edilməsini ənənəvi olaraq bu gün də davam etdirirlər.

Məhərrəmlik mərasimləri İmam Hüseynin (ə) şəninə uyğun və amallarına yaraşan tərzdə qeyd edilməlidir. Mövcud qanunvericiliyə əsasən, təziyə məclisləri məscidlərdə, ibadət ocaqlarında və onlara aid ərazilərdə təşkil olunmalı, ictimai asayişə mane olmamalıdır. Dini mərasim və ayinlər yalnız QMİ-nin rəsmi şəkildə təyin etdiyi din xadimləri tərəfindən idarə edilməlidir. Din xadimləri İmam Hüseyn (ə) mübarizəsinin və Kərbəla faciəsinin mahiyyətini düzgün çatdırmalı, şəhidlik fəlsəfəsinin açıqlanmasına, vətən təəssübü və milli mənafelərimizin təbliğinə ciddi çalışmalıdırlar. İbadət məkanlarından kənar ərazilərdə kütləvi yürüşlərə çıxmaq, özünə və ətrafdakılara xəsarət yetirə biləcək alətləri, başqa ölkələrin bayraq və digər dövlət rəmzlərini mərasimlərə gətirmək yolverilməzdir. Əzadarlıq mərasimlərində dinimizin təyin etdiyi əxlaqi meyarlara riayət olunmalıdır. Qurşağadək soyunub zəncir vurmaqla bədənə xəsarət yetirmək və baş yarmaqla qan çıxarmaq islam qanunlarına ziddir, İmamın (ə) və Kərbəla şəhidlərinin xatirəsinə hörmətsizlikdir. Allah rizası üçün İmam Hüseynə (ə) məhəbbətini izhar etmək istəyənlər fətvada əks olunan tövsiyələrə əməl etməlidirlər. Din xadimləri isə Qazılar Şurasının və Elmi-Dini Şuranın fətvasını məscidlərdə oxumalı və qeyd edilən tövsiyələrə bütün dini mərasimlərdə əməl olunmalıdır.

QMİ-nin təşəbbüsü ilə gerçəkləşən və təziyə günlərində ehtiyacı olan xəstələr üçün təşkil edilən İmam Hüseyn (ə) xatirinə könüllü qanvermə aksiyaları cəmiyyətin təqdirini qazanıb. Səhiyyə Nazirliyi QMİ-nin başlatdığı bu kampaniyaya dəstək əlaməti olaraq məscidlərlə yanaşı, ibadət məkanlarına yaxın ərazilərdə yerləşən tibb məntəqələrində (xəstəxana və poliklinikalarda) də qanvermə aksiyalarının həyata keçirilməsini təmin edəcək. Kərbəla və Azərbaycan şəhidlərinin xatirəsinə qan verilməsinin təşkili ən münasib əzadarlıq nümunəsidir və din xadimlərimiz bu savab əməli lazımınca təbliğ etməlidirlər. Ümid edirik ki, möminlər Allaha xoş gedən bu gözəl ənənəni yaşadacaqlar və Allah-Təala minlərlə xəstə insana İmam Hüseynə (ə) xatir şəfa bəxş edəcəkdir, İnşallah!

Bu gün vətənimiz Azərbaycanda dövlət və xalq birliyi sayəsində ictimai asayiş və əmin-amanlıq mövcuddur. Ölkə müsəlmanları olaraq bu böyük nemətə görə Allah-Təalaya şükürlər edir, din xadimlərimizi və dindarlarımızı respublikadakı mövcud sabitliyin qorunmasına, dindən sui-istifadə edərək məhərrəmlik mərasimlərində qarşıdurma yaratmağa çalışan qüvvələrə qarşı ayıq-sayıq olmağa çağırırıq. Din xadimləri və dindarlar isə hər hansı təxribatın qarşısını almaq üçün asayiş keşikçilərinə yardımçı olmalıdırlar.

QMİ məzhəbindən asılı olmayaraq ölkə müsəlmanlarına İmam Hüseyn (ə) mərasimlərində birgə iştirak etməyi, İmam (ə) və Kərbəla şəhidləri ilə yanaşı, Qarabağ və Xocalı şəhidlərinin də ruhlarına dualar etməyi tövsiyə edir.

Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və Elmi-Dini Şura Azərbaycan dövlətçiliyinin əsasını qoymuş ümummilli lider Heydər Əliyevə Allah-Təaladan rəhmət diləyir, dövlətimizin siyasi-iqtisadi və mənəvi inkişafı üçün misilsiz səylər göstərən, tolerantlığın və multikultural dəyərlərin təminatçısı və himayədarı olan, dünya miqyasında islam həmrəyliyi ideyalarını müdafiə edən dövlət başçısı İlham Əliyevin fədakar fəaliyyətinə Uca Allahdan inayət arzulayır, xalqımızın əmin-amanlığı və rifahı üçün dualar edir. Allah köməyimiz olsun!"

# Daşkəsəndə "Müasir çağırışlar: dini durum və vəzifələr" mövzusunda regional konfrans işə başlayıb

Avqustun 27-də Daşkəsəndə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Daşkəsən Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Müasir çağırışlar: dini durum və vəzifələr" mövzusunda regional konfrans işə başlayıb.

Regional konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Daşkəsən Rayon İcra Hakimiyyətinin rəhbər şəxsləri, hüquq mühafizə orqanlarının rəhbərləri, dini icma sədrləri, din xadimləri, ilahiyyatçılar, həmçinin ictimaiyyət fəalları iştirak ediblər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, əvvəlcə DQİDK-nın tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi ilə çəkilmiş "Heydər Əliyev: dəyərlərimizin xilaskarı" sənədli filminin nümayişi olub.

Konfransda çıxış edən Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev bildirib ki, ölkəmizdə milli-mənəvi dəyərlərimizin yaşadılmasına, o cümlədən yeni dini məbədlərin inşasına, mövcud olanların isə əsaslı təmirinə və yenidən qurulmasına xüsusi diqqət göstərilir. Prezident İlham Əliyevin sərəncamları ilə son illər bir çox tarixi dini abidə və ziyarətgahlar bərpa edilir, dini-mənəvi dəyərlərə verilən yüksək qiymətin göstəricisi olaraq silsilə beynəlxalq tədbirlər keçirilir. Ölkəmizdəki tolerantlıq ənənələrinin daha da möhkəmləndirilməsi istiqamətində atılan addımlar nəticəsində Azərbaycan dünyada multikulturalizmin əsas mərkəzinə çevrilib.

Rayondakı mövcud dini durum barədə məlumat verən icra hakimiyyətinin başçısı qeyd edib ki, Daşkəsəndə "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə riayət olunur, həmçinin dini durumun sabitliyi və dini etiqad azadlığı sahəsində Konstitusiya prinsiplərinin qorunması təmin edilir.

DQİDK sədri Mübariz Qurbanlı çıxışı zamanı dövlət-din münasibətlərinin tənzimlənməsi, milli-dini dözümlülük, sülhsevərlik və humanizm dəyərlərinin önəmindən, dini radikalizm və xurafat elementlərinə qarşı mübarizədə maarifləndirmənin əhəmiyyətindən söz açıb.

Bildirilib ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi ilə maarifçilik işinin effektivliyini artırmaq məqsədilə bir neçə sənədli film hazırlanıb: "Buna misal olaraq "Şəhadət", "Fitnə", "Üfüqdəki gələcək" kimi filmləri göstərmək olar. Bu cür filmlərin nümayişi xüsusilə gənc nəslin tərbiyəsində, maariflənməsində mühüm əhəmiyyətə malikdir. Konfransda nümayiş etdirilən, ulu öndər Heydər Əliyevin Azərbaycanın milli-mənəvi dəyərlərinə yüksək həssaslıqla yanaşmasından, bu sahədə göstərdiyi misilsiz xidmətlərdən bəhs edən sənədli film də bu qəbildəndir. Filmdə nümayiş olunan Heydər Əliyevin milli kimliyimizin, soykökümüzün, tariximizin qorunması, milli-mənəvi dəyərlərimizin yaşadılması uğrunda apardığı mübarizə hər bir vətəndaşımıza, xüsusilə gənclərimizə örnəkdir".



Komitə sədri vurğulayıb ki, dilimiz, dinimiz, milli kimliyimiz, milli əxlaqımız, ailə dəyərlərimiz, himnimiz, gerbimiz, bayrağımız bizim milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir. Milli-mənəvi dəyərlərimizi qorumaq və gənc nəsillərə ötürmək üçün bütün gücümüzü səfərbər etməliyik, bu, bizim vəzifəmizdir.

Bu gün dünyada dindən sui-istifadə hallarının çox geniş xarakter aldığını qeyd edən Mübariz Qurbanlı müxtəlif ölkələrdə din adı altında ekstremist, radikal qrupların yarandığını deyib. Bildirib ki, həmin qruplar bir-birini qəbul etməmə istiqamətində təbliğat aparırlar ki, bu da böyük faciələrə, toqquşmalara gətirib çıxarır. Dünyəvi dövlətçilik prinsiplərinin qorunub saxlanılması və dini təəssübkeşliyin dini təkəbbürə, sonra fanatizm və ekstremizmə çevrilməsinin qarşısının alınmasının vacibliyini vurğulayan komitə sədri insanları birliyə, vəhdətə çağıran dinlərin mahiyyətindən uzaqlaşdırılaraq kimlərinsə əlində radikal, ekstremist, xurafat, antimilli formaya çevrilməsinin yolverilməz olduğunu deyib. Əlavə edib ki, biz özümüzü bu cür təhdidlərdən, belə problemlərdən qorumaq üçün üzərimizə düşən vəzifəni layiqincə yerinə yetirməliyik. Yeni gələn nəsillər milli ruhda, dilinə, dininə, mədəniyyətinə sədaqət ruhunda tərbiyə edilməlidir. Prezident İlham Əliyevin siyasəti də məhz bu istiqamətə yönəlib ki, biz öz gücümüzü, qüdrətimizi qorumalıyıq və din pərdəsi adı altında Azərbaycan əleyhinə istifadəyə imkan verməməliyik.

Dövlət-din münasibətləri sahəsindəki siyasətin əsas istiqamətləri, multikultural dəyərlərin qorunması, eyni zamanda, tolerantlıq mühitinə, milli-mənəvi dəyərlərə bağlılığın gücləndirilməsi barədə müzakirələrlə yekunlaşan konfrans işini bu gün Daşkəsən rayon Heydər Əliyev Mərkəzində "Dini radikalizmlə mübarizə və maarifləndirmə" mövzusunda panellə davam etdirəcək.

# "Şeyxülislam Allahşükür Paşazadə-70" mövzusunda yazı müsabiqəsinin qalibləri mükafatlandırıldı

Bu il Azərbaycan Prezidenti İlham Əliyev Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubileyinin keçirilməsi ilə bağlı sərəncam imzalayıb.





Sərəncama uyğun olaraq Mənəvi Dəyərlərin Təbliği Fondu 12 iyun tarixində Bakı şəhəri Sabunçu rayonu Bakıxanov qəsəbəsi "İmam Rza" məscidi dini icması ilə birlikdə "Şeyxülislam Allahşükür Paşazadə-70" mövzusunda kütləvi informasiya vasitələrinin təmsilçiləri arasında yazı müsabiqəsi elan edib. Müsabiqə qaliblərinin mükafatlandırılması avqustun 26-da keçirilən tədbirdə baş tutub.

Tədbirdə çıxış edən Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov yazı müsabiqəsi haqqında məlumat verib. M.İsmayılov bildirib ki, Şeyxülislam Allahşükür Paşazadənin ölkəmizdəki milli həmrəyliyin bərqərar olması, dövlət-din münasibətlərinin formalaşdırılması, insanlar arasında mənəvi-əxlaqi dəyərlərin təbliğ edilməsi sahəsində böyük xidmətləri var. Şeyx həzrətləri eyni zamanda Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, ölkəmizin beynəlxalq nüfuzunun yüksəldilməsi, Dağlıq Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi istiqamətində genişmiqyaslı səylər göstərmişdir. Azərbaycandakı multikultural dəyərlər və tolerant ənənələrin qorunub saxlanılmasında, eləcə də inkişaf etdirilməsində də Şeyxülislam Allahşükür Paşazadənin səmərəli fəaliyyəti var.

Daha sonra Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov və digərləri çıxış edərək Şeyxülislam Allahşükür Paşazadənin həyat və fəaliyyəti barədə danışıblar. Bildirilib ki, Allahşükür Paşazadə ölkəmizdə beynəlxalq hüquq normalarına və mütərəqqi tarixi ənənələrə əsaslanan dövlət-din münasibətlərinin formalaşması, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, təbliği, o cümlədən sivilizasiyalar və mədəniyyətlərarası dialoqun inkişafı, eləcə də ayrı-ayrı dini etiqadlar arasında qarşılıqlı etimad mühitinin yaradılması sahəsində əvəzsiz xidmətlər göstərib.

Daha sonra müsabiqənin qalibləri mükafatlandırılıb.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Vətəndaşların müraciətləri dinlənilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri və müavinləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin həlli üçün operativ tədbirlər görürlər.

AZƏRTAC xəbər verir ki, vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, avqustun 27-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Daşkəsən, sədr müavini Səyavuş Heydərov Göygöl rayonlarında, sədr müavini Gündüz İsmayılov isə Naftalan şəhərində vətəndaşları qəbul ediblər.

Daşkəsən, Göygöl, Naftalan, Gəncə, Kəlbəcər, Samux, Goranboy və Xocalı sakinlərinin iştirak etdiyi qəbullarda əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatlarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciətlərə baxılıb. Qəbul zamanı hər bir vətəndaşın müraciətinin diqqətlə araşdırılması və qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həlli barədə müvafiq tapşırıqlar verilib, müraciətlərin bir qismi isə yerindəcə həll olunub.

# Azərbaycanda "TurAz Qartalı - 2019" təlimləri keçiriləcək

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında illik hərbi əməkdaşlıq planına əsasən, iki dövlətin Hərbi Hava Qüvvələrinin iştirakı ilə ölkəmizdə "TurAz Qartalı - 2019" birgə taktiki-uçuş təlimləri keçiriləcək.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sentyabrın 2-dən başlayacaq təlimlərdə "MiQ-29", "F-16", "Su-25", "P-235" "Kasa" təyyarələri, "Mi-35", "Mi-17", "Sikorski" UH-70, CH-47 "Çinok" və "ATAK/AH-1W" helikopterlərindən ibarət 30-dək aviasiya vasitəsi iştirak edəcək.

Təlimlərdə Azərbaycan Hərbi Hava Qüvvələri, Türkiyə Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri və Quru Qoşunlarının aviasiya vasitələrinin müştərək fəaliyyətlərinin planlaşdırılması, əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyət, döyüş uzlaşması imkanlarının öyrənilməsi, axtarış-xilasetmə tədbirlərinin icrası, havadan zərbələr endirməklə yer hədəflərinin məhv edilməsi və digər tapşırıqlar yerinə yetiriləcək.

Təlimlər sentyabrın 16-dək davam edəcək.

# Milli dövlətçilik tariximizdə bir ilk



Əvvəli 1-ci səh.

Bu şərəfli sırada Azərbaycanın birinci xanımının təmsilçiliyi qanunauyğun və fərəhli bir hadisədir. Çünki o, eyni zamanda həm Qərb, həm də Şərq dünyasının sirlərini, incəliklərini, tarixinin keçmişini və indisini dərinliyi ilə bilən və ləyaqətlə təmsil edən nümayəndəsidir. Hər şeydən əvvəl isə öz doğma xalqının elçisidir. Mehriban xanımın mənəvi dünyasında, təlqin etdiyi dəyərlərdə Azərbaycan xalqının, Azərbaycan qadınının bir çox üstün cəhətləri öz ifadəsini tapır, ən yüksək keyfiyyətlərin mücəssəməsinə çevirir.

Təbii ki, onun işıqlı əməllərindən əxz etdiyimiz ibrətamizliyi, mənəvi keyfiyyətləri formalaşdıran amillər çoxdur. Bunlar yeniyetmə çağlarından xarakterində zaman-zaman formalaşaraq obrazına bir mükəmməllik gətirir. Bu, əsillik, nəcabət, ailədən-kökdən, nəsildən gələn zadəganlıq dəyərləridir. Yüksək mədəniyyətin, ziyalılığın, kübarlığın göstəriciləridir.

Mehriban Əliyevanın bir şəxsiyyət kimi malik olduğu keyfiyyətləri formalaşdıran da onun əsli-nəslidir, dünyaya göz açdığı andan onu əhatə edən ziyalı mühitidir, Azərbaycan dəyərlərinə ruhən bağlı insanlardan aldığı tərbiyədir. Onlardan görüb-götürdükləri, əxz etdikləridir.

## Cəmiyyətin ümid, pənah ünvanı

Ana adına, ana haqqına sahib olaraq ailə-cəmiyyət üçün layiqli övladlar tərbiyə edib yetişdirmək hər bir qadın üçün, təbii ki, böyük şərəf, borc və vəzifədir. Mənsub olduğun xalqın mənəvi anası, dayağı, ümidi, pənahı olmaq isə daha məsuliyyətli, daha şərəflidir. Hansı böyük dühaya sahib olmalısan ki, Tanrının sənə əmanət etdiyi ömrü yalnız özün üçün deyil, həm də el üçün, xalqın üçün yaşayasan, həyatını ictimai maraqların gerçəkləşməsinə həsr edəsən. Bu missiyanı yorulmadan, ardıcıl, vicdanla, sevgi ilə yerinə yetirəsən. İnsanların rifahı, mənəvi, fiziki əmin-amanlığı üçün yeni yollar, üsullar, layihələr axtarasan və mənəvi rahatlığını da bunda tapasan. Sinəsində böyük, həssas ürək gəzdirən bu şəxsiyyətin bütün insanlığa sevgisi, məhəbbəti, qayğısı da hüdudsuzdur.

O, geniş, əhatəli fəaliyyətini də bu böyük qəlbinin səsi, niyyətinin saflığı, təfəkkürünün işığı ilə həyata keçirir. Bunlar onun həyat yolunu nurlandıran əsas amaldır. Bütün mərhələlərdə görülən işləri ən kiçik detallarına, incəliklərinə qədər izləyə bilməsi, proseslərin içərisində olması da onun ana qəlbinin həssaslığından, düşüncələrinin aydınlığından, həyata ciddi nəzərlərindən yaranır. Mehriban xanım Əliyevanın həyat və fəaliyyəti tarixdə yaşamış və tarix yaratmış münəvvər qadınlarımızın ibrətamiz ömrünün davamı, qloballaşan dünyada daha geniş üfüqlər fəth etməsidir.

Tarixdən dünyaya yaxşı bəlli olan namusu, zəkası, idrakı, təəssübü, hünəri ilə Azərbaycanın tarixinə qəhrəmanlıq simvolu kimi həkk olmuş Qızıl Arslanın həyat yoldaşı Qətibə xanım, Uzun Həsənin anası Sara xatun, Şah İsmayıl Xətainin qızı Məhinbanu, Şirvanşah Xəlilullanın xanımı Pəri xanım, Şah Abbasın anası Xeyransa bəyim, əfsanəvi Tuti Bikə və başqaları Azərbaycan qadınının qürur verən simalarıdır. Mehriban xanım Əliyevanı dünyaya gətirmiş görkəmli şərqşünas alim, professor Aida xanım İmanquliyeva, Ümummilli Lider Heydər Əliyevin ömür-gün yoldaşı, akademik Zərifə xanım Əliyeva XX əsrdə Azərbaycanda qadın fəallığı ənənələrinin parlaq nümayəndələridir.

Mehriban xanım Əliyeva da məhz belə qadınlarımızın həyat məktəbindən dərs almış, məqsəd və məramını davam etdirən nadir şəxsiyyətdir.

Azərbaycan cəmiyyəti onu 1995-ci ildə yaratdığı "Azərbaycan Mədəniyyətinin Dostları Fondu"nun fəaliyyəti ilə tanıdı. 1996-cı ildən bu fondun təşəbbüsü ilə müxtəlif dillərdə nəşr olunan "Azərbaycan-İrs" jurnalı ölkə həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması və təbliği işində böyük rol oynadı. Bu fondun xətti ilə festivallar, sərgilər, mədəniyyət tədbirləri, konsertlər keçirilir, yenicə müstəqillik qazanmış bir ölkənin mədəni irsi timsalında səsimiz, sözümüz dünyaya yayılır, mədəni dəyərlərimizin milli və regional səviyyələrdə mühafizəsi təmin olunurdu. O illərdə fondun himayəsi altında müxtəlif müsabiqələrdən, bədii sərgilərdən tutmuş xeyriyyə konsertlərinə, musiqi festivallarına qədər çoxsaylı layihələr həyata keçirilirdi.

Mehriban xanım Əliyeva yaxşı dərk edirdi ki, bütün zamanlarda xalqı qədim, köklü xalq kimi tanıdan, dünyada qəbul etdirən onun tarixi, mübarizəsi, qüdrəti ilə yanaşı, həm də mədəniyyəti, milli-mənəvi dəyərləridir.

O, 2002-ci ildə Azərbaycan Gimnastika Federasiyasının Prezidenti kimi daha bir vəzifənin ağır məsuliyyətini üzərinə götürərək bu işin də ibtidasından başladı, unudulmuş, yaddan çıxmış bu sahəni də passivlikdən çıxararaq ona yeni ictimai məzmun verdi. Cəmiyyətimizin fiziki və mənəvi sağlamlığına xidmət edən idmana yeni nəfəs gətirdi, təhsildə, səhiyyədə, diplomatik əlaqələrdə çətin, unikal layihələr yaratdı və onları məsuliyyətlə reallaşdırdı. O, bu tədbiri Azərbaycanın bütövlüyü uğrunda ayağa qalxmış bir xalqın, bütün dünyaya multikultural dəyərlərin toxumlarını səpən, intibah yolu ilə addımlayan bir dövlətin, vətənin tarixi yaddaşına əbədi həkk olan torpaq uğrunda qurban getmiş igidlər yetişdirən anaların namus, qeyrət rəmzi kimi, bütöv, azad vətənin simvolu kimi həyata keçirdi. Buna görə də dünyanın mənəvi yaddaşında yaşayan Ana Vətənimiz Azərbaycanın simvoluna çevrildi.

"Eurovision-2012" möhtəşəm mahnı müsabiqəsi yeni Azərbaycanın "prezentasiya məclisi" kimi dünyanın görüb-götürmüş böyük şəxsiyyətlərinin də heyranlığına səbəb oldu. Bu tədbir vətənimizin yeni həyat keyfiyyətlərinə adlayıb keçdiyini göstərən fərəhli bir fakt idi. Dünyanın müxtəlif ölkələrindən gələn 20 mindən artıq qonaq Bakıda gördüklərini "təəccüb", "heyranlıq" epitetləri ilə ifadə edirdilər. Dünyada tayı-bərabəri olmamış bu tədbirin də Təşkilat Komitəsinin sədri qeyri-adi zövq, bacarıq, bilik və dünyagörüşünə malik Mehriban Əliyeva idi.

## Birinci xanım: xeyirxahlıq ilahəsi

2003-cü ildən Mehriban xanım Əliyevanın həyatında və milli dövlətçilik tariximizdə yeni bir mərhələ başlamışdı. Azərbaycanda birinci xanım institutunun yaradıcısı olmuşdu. Bu adın mahiyyəti, daşıdığı məsuliyyət yükü Mehriban xanımın müsahibələrindən birində öz ifadəsini belə tapırdı: "Aydın şəkildə dərk etmək lazımdır ki, müəyyən anda sən fərdi şəxsdən ictimai şəxsiyyətə çevrilirsən. Sən artıq təkcə özünü və ya öz ailəni yox, öz ölkəni təmsil edirsən. Bu barədə özünə hesabat verməli, sözlərində, qərarlarında, hərəkətlərində daha təmkinli olmalısan. Bu, çox məsuliyyətli yükdür".

Dünya dövlətlərinin mövcud təcrübəsinin təhlili göstərir ki, "birinci xanım" anlayışı ayrı-ayrı ölkələrdə dövlətçilik ənənələrindən, siyasi sistemdən, milli-mental dəyərlərdən və digər bu kimi amillərdən asılı olaraq müxtəllif səpkilərdə qəbul olunsa da, onun bütün ölkələr üçün eyni sayılan müəyyən parametrləri var. Bu da dövlətin birinci xanımının yüksək ictimai statusudur. Belə yüksək status isə ölkənin birinci ledisinin şəxsiyyətini daim ictimai maraq dairəsinə çevirir. Bu da miqyasına görə yalnız dövlət başçısına olan maraqla müqayisə edilə bilər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2003-cü ildə dövlət rəhbəri seçildikdən sonra cəmiyyətimiz milli dövlətçilik tariximizdə ilk dəfə olaraq məhz Mehriban xanım Əliyevanın timsalında ictimaiyyətlə səmimi münasibətlərdən çəkinməyən, onunla qarşılıqlı iltifat qurmağa birinci xanımı layiq gördü. O, Azərbaycan Prezidentinin həyata keçirdiyi genişmiqyaslı quruculuq işlərinə ictimai dəstəyin artırılmasına böyük töhfələr verməklə, həmçinin yaxın və uzaq ölkələrin birinci xanımları ilə şəxsi münasibətlər, dostluq əlaqələri yaratmaqla beynəlxalq aləmdə ölkəmiz barədə daha geniş, yüksək və yeni təsəvvürün yaranmasına yol açdı.

Birinci xanım statusunu daşımaq haqqını tale özü müəyyən edir. Lakin bu nəcib, şərəfli adı həqiqi mənada mənəvi-əxlaqi dəyərlərin ucalığında qazana bilmək, əlbəttə, onun milli ruha, ideologiyaya, azərbaycançılıq məfkurəsinə bağlı olması ilə xarakterizə olunur.

Mehriban xanım Əliyeva Azərbaycanın birinci xanımı statusunda əvəzsizdir, bənzərsizdir. Burada Mehriban xanımın bu şərəfli ada münasibət bildirdiyi açıqlamasındakı başqa bir fikrini də xatırlamaq yerinə düşərdi: "Mən birinci xanım olmağımı, ilk növbədə, insanların bu və ya digər probleminin həlli üçün obyektiv fürsət kimi dəyərləndirirəm..." Bəli, bu fürsətdən minlərlə ümidsizin ürəyində ümid çırağı yandı, minlərlə gözlərdə inam yarandı, minlərlə gəncin taleyi gülümsədi, xoşbəxt nəsillərin manifesti yazıldı... İnsanların həyatına ümid, güvənc, təvəkkül mələyi gəldi...

## Heydər Əliyev yolu

Bütün həyat və fəaliyyətini bu vətənin inkişafına, bütün Azərbaycan insanının rifahına həsr etmiş böyük dövlət adamı, Ümummilli Liderin ideyaları işığında Heydər Əliyev Fondunun yaradılması təşəbbüsü də bu zəmində formalaşdı. Fond 2004-cü ilin 10 mayında, Ulu Öndərin doğum günündə fəaliyyətə başlayaraq, ortaya qoyduğu real işlərlə qısa müddətdə hər kəsin ümid, qürur yerinə, mənəvi istinadgahına çevrildi... Bu gün öz fəaliyyəti ilə təkcə Azərbaycan ictimaiyyəti arasında deyil, ölkəmizin sərhədlərindən kənarda da böyük rəğbət qazanan, köməyə, yardıma ehtiyac duyanların hər zaman yanında olan fond bəşər mədəniyyətinə, dünyada sülh və əmin-amanlığın hakim olmasına öz tarixi töhfələrini verir. Heydər Əliyev məfkurəsinin həmişəyaşar səciyyəsini özündə əks etdirməklə, Ulu Öndərin ali ideallarına layiq şəkildə fəaliyyət göstərməklə, qloballaşan dünyamızda azərbaycançılıq fəlsəfəsinə əsaslanmaqla milli-mənəvi dəyərlərimizin təbliğində, tarixi həqiqətlərimizin dünyaya çatdırılmasında, Azərbaycanın beynəlxalq imicinin daha da yüksəldilməsində əvəzsiz rol oynayır.

Məhz Mehriban xanım Əliyevanın əzmkarlığı, təşəbbüskarlığı, həyata keçirilən proqram və layihələrə, ümumən Heydər Əliyev Fondunun işinə yaradıcı münasibəti Ulu Öndərin adını daşıyan bu təşkilatın öz fəaliyyətində kifayət qədər geniş spektri əhatə etməsini şərtləndirən ən mühüm amillərdən biridir. Hər bir insanda fərəh və qürur hissi doğuran bu çoxşaxəli fəaliyyət bir əsas məqsədə yönəlib: insanlara təmənnasız yaxşılıq...

O, öz yüksək statusundan, təşkilatçılıq bacarığından istifadə edərək ehtiyacı olanların problemlərinin həllinə yardım göstərir. Bir ictimai-iqtisadi formasiyadan digərinə keçidlə əlaqədar olaraq uzun illərdən bəri yığılıb qalmış, insanları narahat edən problemlərin dəqiq müəyyənləşdirilməsinə, onların həllindən ötrü səmərəli layihələrin formalaşdırılmasına, çox qısa müddətdə müsbət nəticələrin əldə olunmasına çalışır. Bütün dünyada multikultural islahatlar reallaşdırır. Dünyanın xoşməramlı səfiri statusunu almış heç bir şəxs indiyədək Mehriban Əliyeva qədər geniş, çoxsahəli, çoxəhatəli fəaliyyəti ilə dünyanın diqqətini çəkə bilməmişdir.

Mehriban xanım Əliyeva xalqımızın milli varlığının və özünəməxsusluğunun təcəssümü kimi əsrlər boyu formalaşmış zəngin mənəvi irsimizin, milli düşüncə və dəyərlər sistemimizin güclü hamisidir. O, bütün bunları yad təsirlərdən qoruyur, Azərbaycanın zəngin milli mədəniyyətinin bəşəri miqyasda təbliği kimi çətin və şərəfli vəzifənin öhdəsindən layiqincə gəlir.

## Təhsil - millətin uğur faktoru

Elmi-intellektual potensial tarixin bütün dövrlərində hər bir xalqı irəli aparan əsas amil olub. Müasir dünyamızda isə dövlətin öncüllüyü, milli inkişaf səviyyəsi və gələcək taleyi bu strateji sahənin mövcud durumu ilə şərtlənir. İqtisadi tərəqqi, demokratikləşmə və insan hüquqlarının etibarlı təminatı baxımından özünün yüksək inkişaf mərhələsinə çatmış ölkələrin nailiyyətləri məhz elmə, təhsilə yüksək diqqət və qayğı sayəsində mümkün olub.

Ona görə Mehriban xanım Əliyevanın öz fəaliyyətinin mühüm hissəsini təhsil sahəsinə yönəltməsi heç də təsadüfi deyil. Onun rəhbərliyi ilə bu sahədə reallaşdırılan təşəbbüslər konkret çərçivə ilə məhdudlaşmır - məktəb tikintisindən tutmuş UNESKO ilə konkret təhsil proqramlarının həyata keçirilməsinədək geniş spektri əhatə edir. Qısa müddət ərzində uğurla gerçəkləşdirilən təhsil layihələri cəmiyyətdə böyük rezonans doğuraraq insanların rəğbət və etimadı ilə qarşılanıb. Mehriban Əliyevanın təhsil layihələri Azərbaycanın tarixində intibah gücü olan bir hadisədir.

Mehriban xanımın təhsillə bağlı irəli sürdüyü əsas strateji hədəf Azərbaycanda bu sahənin qloballaşan dünyanın tələbləri səviyyəsində qurulması, milli təhsil modelinin gerçəkləşdirilməsi üçün maddi-texniki və intellektual zəmin formalaşdırmaqdır. Şübhəsiz, təhsil infrastrukturunu yeniləşdirmədən, müasir tipli yeni məktəblər inşa etmədən, təlim-tədris prosesinə lazımi şərait yaratmadan, dünya ölkələrinin mütərəqqi təhsil ənənələrini tətbiq etmədən bu məqsədlərə nail olmaq qeyri-mümkündür. Bunu nəzərə alaraq Mehriban xanım Əliyevanın bilavasitə təşəbbüsü və rəhbərliyi ilə ölkəmizin müxtəlif bölgələrində yüzlərlə yeni məktəb tikilib, yaxud yenidən qurulub.

Mehriban xanımın bu sahədə irəli sürdüyü daha bir təşəbbüs - "Təhsilə dəstək" layihəsi isə maarif nurunu daha geniş əhatədə yayır, Gürcüstandan Misirə, Rumıniyadan Rusiyaya, Pakistandan Hollandiyaya qədər böyük bir coğrafiyada bu işıqdan yüz minlərlə insana nur paylayır.

Bütün bunlar təkcə məktəblərin tikintisi, təmiri, təchizatı, bir sözlə, lazımi təhsil infrastrukturunun qurulması ilə önəmli deyil. Bu layihələrlə Mehriban xanım cəmiyyətdə təhsili ən qiymətli bir dəyərə çevirir, onun aktuallığını artırır. İnsanların diqqətini bu istiqamətə yönəldir. Vətəndaş anlayır ki, heç bir inkişaf, tərəqqi təhsilsiz mümkün deyil.

Mehriban xanımın reallaşdırdığı təhsil layihələri cəmiyyətdə müəllimin nüfuzunu yüksəldir. Universitetin pedaqoji fakültələrində təhsil alan gənclərimizlə ünsiyyət zamanı diqqət edirəm ki, onlar indi öz karyeralarını müəllim kimi qurmaqda maraqlıdırlar. Öz talelərini, gələcəklərini bu peşədə tapan gənclərimizin sayı ildən-ilə artır. Çünki Azərbaycan cəmiyyətində müəllim peşəsinin perspektivinə, təhsilin inkişafına və bu inkişafın ölkəmizi hansı tərəqqi səviyyəsinə yetirəcəyinə inanırlar. Və bu düşüncənin formalaşmasında Mehriban xanım Əliyevanın rolu danılmazdır. Sivilizasiyaların tarixi təcrübəsi də göstərir ki, elmə, təhsilə yüksək qiymət verən, onun yüksəlişini daim diqqətdə saxlayan dövlət rəhbərləri bununla nəinki öz ölkələrinin iqtisadi və mənəvi yüksəlişini təmin edir, həm də dünya təhsilinə və elminə nadir töhfələr vermiş olurlar.

Bu gün dövlətimizin təhsil siyasəti pedaqoji bir nəzəriyyədir. Bu nəzəriyyəni dərindən öyrətmək dövləti bir işdir. Təhsil və dövlətçilik qoşa qanaddır, ayrılmazdır. Onların vəhdəti uğur faktorunu artırır, ölkəni tərəqqiyə aparır.

Mehriban xanım Əliyevanın Azərbaycan təhsilinə miqyasıgörünməyən diqqət və qayğısı bu ali məqsədə xidmət edir. Təhsildə hər bir yeniləşmənin təkamül yolu ilə həyata keçirilməsi, dünya təcrübəsinin öyrənilməsi, milli və ümumbəşəri dəyərlərə əsaslanan beynəlxalq standartlara uyğun, xalqın sabahkı tərəqqisinin mühüm şərtləri nəzərə alınaraq təmin edilməsi Mehriban Əliyevanın Azərbaycan təhsilinə göstərdiyi diqqət və qayğının əsas məqsədidir.

O, XIX əsrin sonu - XX əsrdə yaşamış vətənpərvər ziyalılarımızın geniş əhatədə apardığı fəal maarifçilik işini inamla davam etdirir. Bu xoşməramlı missiya Azərbaycanın işıq dolu sabahına xidmət edir.

Mehriban xanım təhsillə yanaşı, səhiyyə, mədəniyyət, idman, ekologiya və digər sahələrin inkişafı üçün bu ali məramla birləşərək cəmiyyətimiz üçün layiqli vətəndaş, bəşəriyyət üçünsə hər cəhətdən dəyərli insan yetişdirir, Azərbaycan gəncliyinin hərtərəfli inkişafını diqqətdə saxlayır, onu sabaha hazırlayır.

## Xeyirxah əməllər müəllifi

O, xeyriyyəçiliyə cəmiyyətimizdə yeni məzmun qazandırdı. Təlqin etdiyi prinsiplərlə, mütəfəkkir nümunələri ilə anlatdı ki, bir insanın ucalığı, böyüklüyü, dəyəri yaşadığı həyatın təmtəraqlarında, dəbdəbələrində deyil, insanların halını anlaya bilməsindədir. Köməyə ehtiyacı olanlara əl tutmasındadır, sosial qayğıya ehtiyacı olanlara dəstək olmasında, el-oba üçün nəsə faydalı bir iş görməsindədir. Çünki bütün dəbdəbələr, təmtəraqlar müvəqqətidir, insan onların əsirinə çevrildikcə meşşanlaşır, öz dəyərini itirib cılızlaşır. Xeyir əməllər isə insanı həmişə ucaldır. Cəmiyyətin nəzərində onu ən dəyərli varlığa çevirir.

Mehriban xanımın müxtəlif dövlət qurumlarının iştirakı ilə reallaşdırdığı uğurlu sosial-humanitar layihələr ölkəmizdə fəaliyyət göstərən biznes qurumlarına, imkanlı sahibkarlara da belə bir həqiqəti sivil şəkildə anladır ki, iş, biznes təkcə pul qazanmaqdan ibarət deyil. Hər bir şirkət cəmiyyət qarşısındakı sosial məsuliyyətini də dərk etməli və bu yöndə işlər görərək müxtəlif problemlərin həllində dövlətə dəstək verməlidir. Bu, dünyanın bütün sivil ölkələrində belədir və bu cür nəcib ənənələr Azərbaycanda da öz yerini tutmalıdır.

Bu mənada Mehriban xanım Əliyeva insanlığa xas bir çox mənəvi keyfiyyətlərlə zəngin olan yeni ənənələrin təməl yaradanıdır. Bu gün onun xeyirxahlığı vətənin sərhədlərini aşır. Xeyriyyəçiliyin insanlar arasında təkcə maddi yox, həm də mənəvi bağlılıq, birlik yaratdığını göstərir. O, dünyaya məhəbbətlə qucaq açır, bütün xalqları bir evin sakini, dərddaşı, ruhdaşı kimi qəbul etdiyini əməllərində və çıxışlarında böyük sevgi ilə səsləndirir. Bu da onun dünya adlı böyük vətəndə tanınmasına, sevilməsinə, adının hər yerdə ehtiramla çəkilməsinə yol açır.

Mehriban xanımın ehtiyacı olan insanlara kömək, xeyriyyəçilik fəaliyyəti ilə bağlı düşüncələri, atdığı addımlar daha çox Konfutsi prinsipinə əsaslanır: adamlara balıqçı toru ver və onlara balıq tutmağı öyrət ki, öz gündəlik ruzilərini çıxara bilsinlər. Əfsuslar olsun ki, cəmiyyətimizdə uzun illər ərzində bu məsələlərlə bağlı başqa düşüncələr hakim olub. Köməyə ehtiyacı olan insanlara balaca bir maddi yardımla, ərzaq, paltar köməyi ilə, xüsusən milli bayramlarda onlara aparılan sovqatla iş tamamlanmış, borc yerinə yetirilmiş sayılıb. Mehriban xanım isə bu düşüncəni kökündən dəyişir. Reallaşdırdığı onlarla təhsil, səhiyyə, mədəniyyət, diplomatiya, ekologiya və s. sahələrdə apardığı layihələr ölkədə tərəqqiyə yol açan bir hadisəyə, ayrıca bir mərhələyə çevrilir. Layihələrinin müsbət nəticələri göstərir ki, bizim insanlara ən böyük köməyimiz onlara təhsil vermək, hansısa bir sənət öyrətmək, iş yerləri açmaqdan ibarət ola bilər. Onda bizim xırda yardımlarımıza heç bir kəsin ehtiyacı qalmayacaq, insanlar dolanışıqlarını özləri əllərinin zəhməti, bacarıqları ilə tənzimləyə biləcəklər.

Mehriban xanım ölkəmizdəki uşaq evləri və internat məktəblərinin fəaliyyətinə də bu prinsiplə yanaşır. Bu təlim-tərbiyə müəssisələrində yaşayıb təhsil alan balaca vətəndaşlarımıza ana kimi qayğı göstərir, onların gələcək uğurlu həyatından ötrü məqsədyönlü yollar düşünür və tapır. Onun bu məktəbləri bitirmiş gənclər üçün inşa etdirdiyi mənzillər, yaradılmasına dəstək olduğu iş yerləri hesabına yüzlərlə kimsəsiz gənc ev-eşik, iş-güc sahibi olub, xoşbəxt, uğurlu bir ailənin təməlini qoyub.

Mehriban xanımın genişhəcmli fəaliyyəti göstərir ki, o, təkcə öz ailəsinə deyil, həm də xalqına məxsusdur. Eyni zamanda ailəlikcə, tərbiyə etdiyi nəcib, zəkalı, idraklı övladları ilə də bu xalqın xidmətindədir. Fəaliyyətinin hər məqamında xalqı düşünür, insanlara kömək göstərməkdən, onlarla ünsiyyətdən böyük zövq alır, bundan mənəvi rahatlıq tapır. Çıxışlarına diqqət etdikcə onu da duyursan ki, çəkdiyi əziyyətlər öz bəhrəsini verəndə, hansısa bir layihə, təşəbbüs öz məqsədinə nail olanda, insanlar bundan faydalana biləndə qəlbi rahatlıq tapır, bəxtiyar görünür.

İnsanlara bağlılığı onun daxilindən, mənəvi dünyasından, xoş niyyətlərindən gəlir.

Xalqa bunca ürəkdən xidmət etməsi milli ruha, azərbaycançılıq ənənələrinə, Heydər Əliyev ideyalarına sadiqlikdən yaranır.

## Fərəh gətirən nəticələr

Ölkəmizdə son 26 ildə aparılan siyasət Azərbaycanın qloballaşan dünyaya inteqrasiyasına yeni bir dinamika verir. Bu dövrün əvvəli ilə bugünü arasındakı fərqi düşündükcə Azərbaycanın Avropa siyasətində yerini, dəstxətini, dəyərlər sırasındakı mövqeyinin özünə xas hədəflər kəsb etməsini görməmək, dərk etməmək mümkün deyil. Bu mühüm siyasətin reallaşmasında tale özü Prezident İlham Əliyevə etibarlı silahdaş vermişdir. Mehriban Əliyevanın humanist təbiəti, yüksək şəxsi mədəniyyəti, milli dəyərləri mütəfəkkir və insan kimi sevmək bacarığı Azərbaycanın yeni Qərb siyasətinin leytmotivi və məzmunu üçün bir impuls oldu. Və nəticələrə baxanda görürsən ki, Prezident İlham Əliyevin və Mehriban xanım Əliyevanın xarici və daxili möhtəşəm siyasətinin heyrətləndirici nəticələri ortadadır. Bu fərəh gətirən nəticələr milli ruha, milli dövlətçilik dəyərlərimizə bağlılığın inkaredilməz həqiqətləridir.

Və bu ruh, bu əqidə, milli dövlətçilik dəyərlərimizə belə bir bağlılıq Mehriban xanımın adı ilə Azərbaycanın dövlətçilik tarixində yeni bir səhifə açdı. Onun adı tariximizdəki daha bir ilkə yazıldı. Mehriban xanım Əliyeva 2017-ci ilin 21 fevralında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməklə dövlətçilik iyerarxiyasında belə ali bir mənsəbə yetişərək Azərbaycan qadınının adını daha ucalara yüksəldən ilk qadın siyasətçi oldu.

Azərbaycanı öz tarixinin ən qüdrətli mərhələsinə gətirib çıxarmış Prezident İlham Əliyevin yaxın silahdaşı kimi Mehriban xanım Əliyevanın xalqın maraqlarının müdafiəsinə yönəldilmiş hərtərəfli fəaliyyəti Azərbaycan qadınının cəmiyyətin həyatında rolu barədə bütün dünyada aydın təsəvvür yaradır. Bu gün onun timsalında Azərbaycan qadınının cəmiyyətdəki yeri, nüfuzu, işgüzarlığı, dövlətə layiqli xidmət missiyası bir daha aydın görünür.

Mehriban xanımın bu ali vəzifədə gördüyü işlər ölkəmizdə qadın fəallığı ənənələrinin inkişafında yeni bir salnamədir. Onun ölkəmizin, cəmiyyətimizin inkişafına verdiyi zəngin töhfələrlə yazılan bu salnamə Azərbaycan qadınının əzmkarlığının, zəhmətsevərliyinin, fədakarlığının, dünyaya və insanlara sonsuz sevgisinin hər cümləsi ilə rəğbət doğuran hekayəsidir. Və bu hekayənin qəhrəmanının Yeni Azərbaycan Partiyası sədrinin müavini olması, partiyamızın Qadınlar Şurasının idarə heyətində təmsil olunması da böyük qürur və fəxarətdir.

Mehriban xanım Əliyevanın yaratdığı nümunələr, təlqin etdiyi prinsiplər gənclərimiz, xüsusilə gənc qızlarımız üçün böyük bir örnəkdir. Onlar bu işıqlı şəxsiyyətdən xeyirxahlığı, mərhəməti, insanların halını anlamağı, başqaları üçün faydalı olmağı, bir o qədər də əzmkarlığı, fərdi inkişaf ruhunu, vətənsevərliyi görüb götürürlər. Milli-mənəvi dəyərlərimizə bağlılığı, ailə dəyərlərinə sadiqliyi öyrənirlər. Mehriban xanımın təlqin etdiyi nümunə gənc qızlarımızı oxuyub öyrənməyə, təhsil və karyera imkanlarından faydalanmağa, cəmiyyətin ictimai həyatında daha fəal iştirak etməyə ruhlandırır, onların sosial-iqtisadi müstəqilliyinə, ziyanlı vərdişləri öz həyatlarından uzaqlaşdırmalarına kömək göstərir.

Mehriban xanım Əliyevanın xidmətlərinin, yerinə yetirdiyi vəzifələrin sevinci indiyədək minlərlə insanın ömür səhifəsinə yazılıb. Neçə-neçə ailəyə səadət bəxş edib. Kimsəsizlərə, sosial qayğıya ehtiyacı olanlara həyat eşqi verib. Onların qəlbində işıqlı sabaha inam yaradıb.

Bu milli əməllərin adı insanlığa xidmətdir, bəşəriyyətin xoşbəxtliyi üçün çalışmaqdır. Çünki bəşəriyyət bəzən düşünülən qədər də mücərrəd məfhum deyil, o da ayrı-ayrı fərdlərdən ibarətdir və hər fərdə uzanan kömək əli bəşəriyyəti gələcəyə aparan gücdür.

Mehriban xanım Əliyeva da bütünlükdə bəşəriyyətin gələcəyinə çalışır, bu gələcəkdə insani dəyərlərin, sevginin, xeyirxahlığın, mədəniyyətlər arasında dialoq və qarşılıqlı hörmət ruhunun, multikulturalizmin hakimliyinə can atır. Azərbaycan dövlətinin təşəbbüsü, onun təşkilatçılığı ilə ölkəmizdə keçirilən I Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, qlobal mədəniyyət tədbirləri, humanitar forumlarla paytaxtımızdan bütün bəşəriyyətə çağırışlar ünvanlanır, dünyanın və insanın inkişafı, sülh, sosial rifah üçün yollar aranıb tapılır.

Mehriban xanımın yerinə yetirdiyi tarixi missiya müxtəlif illərdə həm Azərbaycan dövləti, həm də xarici ölkələr və nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən öz layiqli qiymətini alıb, ali titullara, dövlət mükafatlarına layiq görülüb. Birinci vitse-prezident Azərbaycanın ən yüksək dövlət mükafatı olan "Heydər Əliyev ordeni" ilə təltif edilib. Bu ay isə Mehriban xanım Azərbaycan-Rusiya münasibətlərinin inkişaf etdirilməsi və möhkəmləndirilməsindəki xidmətlərinə görə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin imzaladığı fərmanla bu ölkənin "Dostluq" ordeni ilə mükafatlandırıldı. Bu da Mehriban xanım Əliyevanın şəxsiyyətinə beynəlxalq rəğbətin, Azərbaycanın xarici əalqələrinin inkişafına verdiyi töhfələrin, həyata keçirdiyi mədəniyyət diplomatiyasına dəyərin daha bir ifadəsidir.

***Nurlana ƏLİYEVA,***
***Bakı Slavyan Universitetinin rektoru, professor,***
***YAP Qadınlar Şurasının sədri***








# Azərbaycan polisi Avropa polisindən də üstün və peşəkardır

## Həm sabitliyin təminatı və cinayətkarlığa qarşı effektiv mübarizəyə, həm də vətəndaş məmnunluğuna görə...

*Əvvəli 1-ci səh.*

Çimərlik ərazisində içərisində telefonlar, müvafiq sənədlər və pul qabının olduğu səfər çantası oğurlandı. Polisə məlumat verilərkən məlum oldu ki, 8 km sahil xətti ərazisində xidməti fəaliyyət göstərən bir əməkdaş belə yoxdur. Yəni on minlərlə insanın dincəldiyi geniş məkan tam nəzarətsizdir. Budva şəhər polisinə gedərək hadisə barədə məlumat verərkən müstəntiq faktı qeydə almaqdan imtina etdi: "Onsuz da heç nə tapılmayacaq, buna cinayət işi açmağa ehtiyac yoxdur, itki ilə barışın" deyərək bizi heyrətləndirdi. Fəqət heyrətimiz bununla bitmədi, əslində, polis laqeydliyi yeni başlayırdı.

Ciddi israrlardan sonra məsələni rəsmiləşdirməyə razılıq verdi, ancaq faktı oğurluq yox, itki kimi yazmağı təklif etdi. Kəskin etirazımızdan sonra protokol tərtib olundu, ancaq o da yarımçıq... Növbəti etirazdan sonra telefonların "imey" kodunun və ərazinin kamera nəzarəti altında olduğunun qeyd edildiyi ikinci protokol yazıldı. Ağlımız Azərbaycana getdiyindən müstəntiqə cinayəti "isti izlərlə" açmaq üçün dərhal kameraya baxmağı və telefonların "imey" kod vasitəsilə nəzarət altına alınmasını, yaxud bloklanmasını təklif etdik. Müstəntiq heyrətləndirməkdə davam edirdi: "Kameraya baxmağa nə ehtiyac? Orada tutaq ki, kimisə gördük, bu qədər adamın arasından onu necə tapacağıq? "İmey" kod nəzarəti, bloklanma isə əhəmiyyətsiz işdir. İstirahətinizin qalan vaxtını maraqlı keçirin. Stresdən uzaq olun, itkini qəbul edin".

Hüquqşünasla, yoxsa psixoloqla söhbət etdiyimizi özümüz üçün aydınlaşdırarkən məlum oldu ki, oğurluq və itki hallarında polisin əməliyyat tədbirləri ümumiyyətlə aparılmır. Kim insafa gəlsə tapdığı əşyanı polisə gətirə bilər. 4 gün ərzində hər dəfə polisə müraciət etdikdə, nəinki əməliyyat tədbirlərinin keçirilmədiyini, heç ümumiyyətlə kameraya baxmadıqları məlum oldu. Hər dəfə idarə qarşısında onlarla polisin kart oynadığını, parkda dincəldiyini, kabinetlərində mürgülədiklərini gördük. Görünür, onlar üçün istirahət xidməti fəaliyyətin "əsasını" təşkil edir.

### Qərbdə polis niyə cinayətkarı yox, onun qurbanını ittiham edir?

Bir məqamı da vurğulayaq ki, məsələdən xəbərdar olan Azərbaycanın Monteneqrodakı Diplomatik Nümayəndəliyinin rəhbəri, müşavir Mahir Cəfərov cinayət işinin operativ araşdırılması məqsədilə elə həmin gün bu ölkənin Daxili İşlər Nazirliyinə və ardınca Budva şəhər polis idarəsinə müraciət etdi. Nümayəndəliyin əməkdaşı, üçüncü katib Orxan Əliyev iki dəfə (həmin gün və sonradan yenə də) şəxsən polis idarəsində oldu. Onlara da qeyri-müəyyən cavablar verildi. Və nəticə indiyədək də yoxdur...

İtkinin maddi tutumu nə qədər böyük olsa da, polisin cinayət faktına biganə, xidməti fəaliyyətinə məsuliyyətsiz yanaşması, vətəndaş müraciətlərini qulaqardına vurması daha ağrılı idi!

Bəlkə də bir fakta görə hansısa ölkənin hüquq mühafizə orqanlarının fəaliyyətini təhlil etmək düzgün sayılmaz. Ancaq apardığımız müşahidələr və bu hadisə ilə bağlı təəssüfünü bölüşən digər xarici turistlərlə söhbətimiz nəticəsində aydın oldu ki, qarşılaşdığımız acı mənzərə nəinki Monteneqronun, ümumilikdə Avropanın polis fəaliyyətinin gerçək mənzərəsidir. Məsələn, bir turistin İtaliyada otelin qarşısından çoxsaylı kameranın nəzarətində olan yerdən çemodanı oğurlanıb. Amma polis nə kameraya baxıb, nə də əməliyyat işi aparıb. İspaniyada cibindən pul kisəsi oğurlanan birini isə polis "cibinə, puluna nəzarət edə bilmirsən, günah sənin özündədir" deyə ittiham edib və hadisəni qeydə almayıb. Almaniyada isə günün günorta çağı soyulan şəxsi polis "kriminal məhəlləyə girməkdə" məzəmmət edib, "faktı qeydə alırıq, ancaq oğurlanan əşyalarının geri qayıdacağını gözləmə" deyərək qapını göstəriblər.

Bu və digər hadisələri dinlədikcə Avropada, eləcə də ABŞ-da polisin fəaliyyətsiz bir quruma çevrildiyi, kriminogen duruma nəzarət etmədiyi, bir sözlə, cinayətkarların və cinayətkarlığın qarşısında mübarizə aparmadan təslim olduğu qənaəti daha da qətiləşir.

### Azsaylı polislə daha səmərəli fəaliyyət

Əsl həqiqət müqayisədə üzə çıxır. Bəs bu vəziyyətlə Azərbaycanda qarşılaşsaydıq, proses necə gedəcəkdi?

Əvvəla, Azərbaycanda daxili işlər orqanlarının maddi-texniki təchizatı, infrastrukturu elə yüksək səviyyədədir ki, bütün ərazilər müvafiq təyinatlı polis xidmətlərindən (mühafizə, çevik polis, post-patrul və s.) başlayaraq sahə polis məntəqələrinədək tam nəzarət altına alınır. Monteneqroda olduğu kimi, 8 km-lik sahil ərazisi nəinki nəzarətsiz qala bilir, Azərbaycanda o məkanda azı bir polis məntəqəsi və 10-15 əməkdaş fasiləsiz nəzarət funksiyası həyata keçirir.

Yeri gəlmişkən, bəzən "Avropanı gəzdik, nə bir yerdə, nə bir yolda polis gördük. Deməli, belə də olarmış və problem də yaranmazmış" deyənlərlə rastlaşırıq. Amma faktların timsalında təsdiqini tapan odur ki, əslində, polis nəzarətsizliyi ciddi problemlərə rəvac verir, vətəndaş cinayət halı ilə üzləşdikdə dərhal onu qoruyacaq, təhlükədən xilas edəcək operativ mühafizə sistemi olmur.

Əslində, Azərbaycanda polisin sayı çox deyil. Statistikaya görə, polis əməkdaşlarının sayı ilə əhalinin say nisbəti uzlaşdırıldıqda Azərbaycanda daxili işlər orqanlarının şəxsi heyəti Avropanın istənilən ölkəsi ilə müqayisədə azdır.

Sadəcə onlarda polis fəaliyyətini ofisdə masa arxasında, ya kondisionerin, ya da qızdırıcının qarşısında mürgüləməklə "icra" edir. Azərbaycanda isə polis səhərdən axşama, gecədən sübhə qədər postda, ərazidə, ictimai asayişin keşiyindədir. Yağışa-borana, qızmar günəşə, sərt küləyə baxmadan yollarda hərəkəti tənzimləyir, küçələrdə rahatlığı təmin edir, bədnam ünsürlərə əl-qol açmaq imkanı vermir.

Hər kəs bayram günlərində ailəsini başına yığıb istirahət etdikdə Azərbaycan polisi gücləndirilmiş rejimə uyğun olaraq işə çıxır, təhlükəsizliyimizin etibarlı keşiyində dayanır, rahat bayram keçirməyimizi təmin edir.

Binada qəza baş verəndə polis əməkdaşı yanğına məhəl qoymayaraq içəri daxil olur, canı bahasına insanları xilas edir. Çaylarda sellər daşanda daxili işlər orqanlarının əməkdaşları yenə də öndə olur, xilasedici, bənd möhkəmləndirmə işlərində yardımlarını əsirgəmirlər.

Bizim asayişimiz üçün düşünmədən canlarını qurban verirlər, dövlətin təhlükəsizliyini qorumaq naminə sinələrini sipər edirlər, müstəqilliyin əbədiliyi, ölkənin sabitliyi üçün terrorçunun üstünə yeriyir, cinayətkarı bir həmlədə zərərsizləşdirirlər.

Onlar şəhiddir, şəhid övladlarıdır və yeni savaşda şəhid olmağa hazır qəhrəmanlardır...

### Avropada polis vətəndaşın yanında deyil, tam əksinə, qarşısındadır

Avropa polisinin fəaliyyətini təhlil edərkən bir anlıq sanki Azərbaycan daxili işlər orqanlarının 1990-1993-cü illərdəki fəaliyyətini xatırlayırsan. Oxşarlıq həddən çoxdur...

Avropada polis baş vermiş cinayətləri nəinki araşdırmaqda, heç qeydə almaqda belə maraqlı deyil. Azərbaycan polisi isə bu prosesi tam şəffaflaşdırıb. Polis idarələrinə, məntəqələrinə müraciətdən əlavə vətəndaşlar üçün "102-Zəng Mərkəzi" xidməti effektiv fəaliyyət göstərir. Bir fakta nəzər salaq. Yalnız elə ötən il bu xidmətə daxil olan məlumatlar əsasında 1801 cinayət "isti izlər"lə açılıb, 9435 hüquqazidd əməlin qarşısı alınıb.

Yaxud baş vermiş cinayəti araşdırmaq üçün kameraya baxmağa lüzum görməyən avropalı polislərin azərbaycanlı həmkarları tərəfindən "Təhlükəsiz şəhər" sisteminin texniki imkanları ilə ötən il 566 cinayət işi açılıb, 20480 hadisə aşkarlanıb, axtarışda olan 90 avtomobil saxlanılıb.

Avropada daxili işlər orqanları informasiya texnologiyalarından (baxmayaraq ki, əksəriyyəti elə öz istehsallarıdır) tam gücü ilə istifadə edə bilmir, adi telefonu blok etməkdə acizdir. Azərbaycanda isə xidmətin istisnasız olaraq bütün istiqamətlərini ən modern yüksək texnologiyalarla təmin edən polisimiz heyrət doğuracaq müasir metodlarla cinayətkarı bəzən elə "iş" başında yaxalayır.

Azərbaycan polisi üçün əməliyyat-axtarış tədbirlərində əsas nəticəni "isti izlər" müəyyənləşdirirsə, Avropada at izi ilə it izi hər zaman biri-birinə qarışır.

Avropa ölkələrində açılan cinayət işlərinin faiz göstəricisi əksər hallarda heç 50 faizə çatmır, Azərbaycanda isə bu, ötən il 85 faiz təşkil edib.

Avropada polis üçün xarici diplomatların, turistlərin müraciəti heç bir əhəmiyyət kəsb etmir, onlar da gözardına vurulur, ölkələri barədə haqlı tənqidi mülahizənin yaranması veclərinə də deyil. Azərbaycanda isə diplomatların da, turistlərin də müraciətləri daha həssas nəzarətə götürülür, demək olar ki, baş vermiş cinayət dərhal araşdırılaraq nəticə əldə olunur.

Qərbdə daxili işlər orqanları öz fəaliyyətlərində vətəndaş məmnunluğunun təmini, ictimai rəyin öyrənilməsi, əhalinin müraciətlərinin araşdırılması və təcili tədbirlərin görülməsi kimi məqamlara ümumiyyətlə əhəmiyyət vermirlər. Azərbaycanda isə polisin fəaliyyətindən ictimai razılıq 90 faizi ötür, nazirdən polis sahə rəislərinədək hər biri mütəmadi vətəndaş qəbulları keçirirlər, çoxsaylı monitorinqlərlə əhalinin polisin fəaliyyəti ilə bağlı düşüncələri, rəyləri öyrənilir.

Avropada vətəndaş cinayətə məruz qaldıqda, həyatı, yaxud əmlakı zərər gördükdə polisə güvənmir, ondan imdad gözləmir. Bilir ki, burada onun pozulmuş hüquqlarına biganə yanaşılacaq. Azərbaycanda isə insanlar ümid, güvənc yeri kimi polisə müraciət edir, hüquqları da qorunur, cinayətkar da lazımi cəzasını alır.

Avropada malı, əmlakı oğurlanan şəxsi polis məsuliyyətsizlikdə ittiham edir, Azərbaycanda isə itirilmiş əşya həmin gün tapılmadıqda polisdən narazılıq edirlər, amma hər kəs əmin olur ki, 3-5 günə cinayətin üstü açılacaq.

Qərbdə polis vətəndaşın yanında deyil, tam əksinə, qarşısındadır. Vətəndaş polisə ehtiyac duyduqda onu tapa bilmir, ancaq hansısa etiraz üçün mitinqə çıxanda polis onun qarşısında rezin güllələrlə, gözyaşardıcı qazlarla, atları və itləri ilə dərhal peyda olur. Sanki Qərbdə polisin fəaliyyəti vətəndaşı yox, yalnız hakimiyyəti qorumaqdır.

### Azərbaycan polisinin uğurlu fəaliyyətini beynəlxalq hesabatlar da təsdiqləyir

Azərbaycanda isə polisin xidməti fəaliyyətinin yeganə qayəsi ictimai asayişi təmin etmək, cinayətkarlığa qarşı effektiv mübarizə aparmaq, dövləti hər cür təhdiddən qorumaq, vətəndaşın təhlükəsizliyini hifz etməkdir.

Azərbaycan polisi iqtidarı qorumur, çünki buna ehtiyac da yoxdur! İqtidarı xalq qoruyur və hakimiyyətə daxildən heç bir təhdid yoxdur! Bu iki gücün - xalqla iqtidarın vəhdəti danılmazdır, siyasi möhtəşəmlik nümunəsidir!

Xalq-iqtidar birliyinin nüvəsini təşkil edən faktorlardan biri də məhz Azərbaycan polisinin xidməti fəaliyyəti nəticəsində əldə olunan sabitlik, asayiş, təhlükəsiz həyatdır. 1994-cü ildən etibarən Heydər Əliyevin nəzarəti altında fəaliyyətini tam dəyişdirən, yeni keyfiyyət mərhələsinə qədəm qoyan daxili işlər orqanları üçün vətəndaşlarımız tam əminliklə "mənim polisim məni qoruyur" söyləyir.

Prezident İlham Əliyevin himayəsi altında fəaliyyətini daha da təkmilləşdirən, modernləşdirən polis orqanlarının fədakar xidməti nəticəsində Azərbaycanda ən böyük idman, mədəniyyət tədbirlərinin, beynəlxalq sammitlərin, konfransların təhlükəsizliyi tam təmin edilir, hər il yüz minlərlə turistin asayişi etibarlı qorunur.

Mülahizələrimiz, müqayisələrimiz bəlkə də subyektiv ola bilər. Amma obyektiv olduğuna əminik. Niyə? Çünki söylədiklərimizi, rəylərimizi beynəlxalq polis təşkilatlarının hesabatları da tam təsdiqləyir.

Əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı baxımından Azərbaycan 10 ildən artıqdır ki, MDB və Avropa məkanında öncül mövqeyini saxlayır, ən təhlükəsiz və sabit dövlətlərdən biri kimi beynəlxalq hesabatlarda qeyd olunur!

Polisin fəaliyyətində bəyəm problem yoxdur? Əlbəttə ki, var! İş olan yerdə hansısa nöqsanların baş verməsi də təbiidir. Polisin fəaliyyətində də xidməti qəbahətə, nöqsana, çatışmazlıqlara rast gəlinir. Amma burada xüsusi diqqət ediləsi bir məqam var: bütün bu problemlər əksər hallarda məhz daxili işlər orqanlarının rəhbərliyi tərəfindən aşkarlanır. Onların qarşısının alınması üçün konkret addımlar atılır. Vəzifə öhdəliklərinə riayət etməyən əməkdaşlar cəzalandırılır, orqanlardan kənarlaşdırılır. Polis haqqında ictimai əhəmiyyət kəsb edən hətta ən epizodik rəy, fikir, iddia belə reaksiyasız qalmır.

Azərbaycan polisi fəaliyyətini bütün parametrlər üzrə yeni dövrün tələblərinə uyğun qurur. Dövlətə, xalqa bağlılıq, xidməti öhdəliklərə məsuliyyətli yanaşma daxili işlər orqanlarının ictimai nüfuzunu daim artırır.

*Sabitliyimizi, asayişimizi, dövlətimizi, iqtidarımızı qorumaqla yanaşı, onların qədrini, dəyərini də bilməliyik.*
*Elə Azərbaycan polisinin də...*

**İxtiyar HÜSEYNLİ,**
***"Azərbaycan"***

---

**AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN APARATINDA 2019-cu İLİN SENTYABR AYINDA VƏTƏNDAŞLARIN QƏBULU**

**C Ə D V Ə L İ**

| | Qəbul günləri |
|---|---|
| **Ziyafət Abbas oğlu ƏSGƏROV**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini - Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | 16 |
| **Bahar Əvəz qızı MURADOVA**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - İnsan hüquqlarıkomitəsinin sədri | 19 |
| **Valeh Feyruz oğlu ƏLƏSGƏROV**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | 23 |
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ**<br>Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | 17 |
| **Ziyad Əliabbas oğlu SƏMƏDZADƏ**<br>Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | 18 |
| **Eldar Rza oğlu İBRAHİMOV**<br>Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | 16 |
| **Hadi Musa oğlu RƏCƏBLİ**<br>Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | 13 |
| **Arif Qafar oğlu RƏHİMZADƏ**<br>Milli Məclisin Regional məsələlər komitəsinin sədri | 20 |
| **İsa Əkbər oğlu HƏBİBBƏYLİ**<br>Milli Məclisin Elm və təhsil komitəsinin sədri | 25 |
| **Rafael Baba oğlu HÜSEYNOV**<br>Milli Məclisin Mədəniyyət komitəsinin sədri | 23 |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV**<br>Milli Məclisin Səhiyyə komitəsinin sədri | 24 |
| **Ülvi Zahid oğlu QULİYEV**<br>Milli Məclisin Gənclər və idman komitəsinin sədri | 27 |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV**<br>Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri | 25 |
| **Səməd İsmayıl oğlu SEYİDOV**<br>Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri | 20 |
| **Aqiyə Həbib qızı NAXÇIVANLI**<br>Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | 26 |
| **Səfa Abbas oğlu MİRZƏYEV**<br>Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | 2 |
| **Firudin Süleyman oğlu HACIYEV**<br>Azərbaycan Respublikası Milli Məclisinin işlər müdiri | 4 |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD**<br>Milli Məclis Aparatının Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri | 12 |
| **Məhəmməd İmran oğlu BAZIQOV**<br>Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | 11 |
| **Nizami Abdulla oğlu SƏFƏROV**<br>Milli Məclis Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | 10 |
| **Adilə Ziyat qızı ABASOVA**<br>Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | 9 |
| **İlqar İslam oğlu FƏRZƏLİYEV**<br>Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | 5 |

**QEYD:** Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsində qəbul olunurlar.

**Qəbula yazılma vaxtı:** saat 9:00-dan 18:00-dək
**Qəbul vaxtı:** saat 14:00-dan başlayır
**Qəbul günü qəbula yazılma:** saat 12:00-da dayandırılır.

Qəbula 1 gün qalmış elektron qeydiyyat dayandırılır.
Azərbaycan Respublikası Milli Məclisinə qəbula dəvət olunanlar şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

**Telefonlar:** (012) 510-99-38
(012) 510-89-14
(012) 492-74-05

*Aparatın Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsi*

---

# 167 yeni növ məhsul, 10 milyard dollarlıq ixrac

## Prezident İlham Əliyevin "Made in Azerbaijan" brendinin təşviqinə dair qəbul etdiyi qərarlarla ölkəmiz dünyanın 170-dən çox dövləti ilə ticarət əlaqəsi yaradıb

*Əvvəli 1-ci səh.*

Görülən işlər qeyri-neft ixracının göstəricilərində də əksini tapır. Belə ki, son 3 il ərzində qeyri-neft ixracı ümumilikdə 36,5 faiz artaraq 1,7 milyard dollar təşkil edib. İxracın şaxələndirilməsi ilə yanaşı, sahibkarlara yaradılmış imkanlar xarici ticarətlə məşğul olan biznes subyektlərinin sayında əhəmiyyətli artıma gətirib çıxarıb və 79 faizlik artım müşahidə olunub. Bu, artan iqtisadi fəallığın və şəffaflığın əyani göstəricisidir. Eyni tendensiya 2019-cu ilin altı ayında da davam edib, qeyri-neft ixracı 15 faiz səviyyəsində artaraq 980 milyon dollar təşkil edib. Ticarət tərəfdaşlarının, mal çeşidlərinin və ticarət iştirakçısı biznes subyektlərinin sayında da artım qeydə alınıb.

Dövlət iş adamlarına hərtərəfli dəstəyini göstərməkdə davam edir. Sahibkarlar isə "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqinə mühüm töhfə verirlər. Bu, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan iqtisadi islahatlar nəticəsində sahibkarların öz ixrac-idxal əməliyyatlarını daha rahat şəkildə yerinə yetirmələri üçün həyata keçirilən tədbirlərin tərkib hissəsidir. Azərbaycanın artan potensialı istehsalın və ixracın genişləndirilməsinə, xarici ticarətin strukturunun şaxələndirilməsinə, rəqabətqabiliyyətli və ixracyönümlü qeyri-neft sektorunun inkişafına böyük imkanlar açır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

---

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 22 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası Berd rayonunun Mosesqex kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli kəndində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub. Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Baş Qərvənd, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.




# AMAL-ın amalı gəncləri aqrar sahəyə cəlb etməkdir

Aqrar Məşğulluğun Artırılması Layihəsi (AMAL) bir ilə yaxındır icra olunur. Layihə çərçivəsində çoxsaylı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. İlk dəfə reallaşan AMAL Akademiyası Yay Məktəbinin təşkilində əsas məqsəd gəncləri aqrar sahəyə cəlb etmək, onlarda sahibkarlıq düşüncələrini formalaşdırmaqdır.

AZƏRTAC xəbər verir ki, bu sözləri Aqrar Kredit və İnkişaf Agentliyinin (AKİA) sədri Mirzə Əliyev Oğuzda başlanan AMAL Akademiyası Yay Məktəbinin açılış mərasimində jurnalistlərə müsahibəsində deyib.

AMAL çərçivəsində keçirilmiş Gənc Fermerlər Proqramının uğurlu nəticələri barədə məlumat verən AKİA-nın sədri bildirib ki, proqramda iştirak edən 400 nəfərədək gəncin təxminən yarıdan çoxu bütün təlimlərdə iştirak edərək öz biznes-planlarını hazırlayıblar. Mütəxəssislər tərəfindən qiymətləndirildikdən sonra 100-dək gəncin biznes ideyaları bəyənilib. Artıq həmin ideyaların maliyyələşdirilməsinə çox az müddət qalıb. "İnanırıq ki, bu gün yay məktəbində iştirak edən gənclər də Gənc Fermerlər Proqramının uğurlu nəticələrindən yararlanacaqlar" deyə Mirzə Əliyev qeyd edib.

AKİA sədrinin sözlərinə görə, AMAL çərçivəsində gələcəkdə praktik olaraq bir neçə rayonda fəaliyyət göstərmək fikrindədirlər. Lənkəranda limonçuluq, Masallıda çayçılıq, Şamaxıda üzümçülük, Şəkidə tütünçülük sahələri üzrə müxtəlif tədbirlərin həyata keçirilməsi planlaşdırılır. M.Əliyev bildirib ki, gələcəkdə AMAL aqrar məhəllələrinin salınması da nəzərdə tutulur. Pilot layihə olaraq bu işə Lənkərandan başlanması planlaşdırılır. Bunun üçün 5-10 hektarlıq ərazi ayrılacaq. Nəticə yaxşı olarsa, layihə digər bölgələri də əhatə edəcək.

"Şübhəsiz ki, bütün bu təşəbbüslər aqrar sahəni gəncliyin seçiminə, əsas gəlir mənbəyinə çevirmək məqsədi daşıyır" deyə Mirzə Əliyev vurğulayıb.

# Üzümçü fermerlər üçün seminar keçirilib



Şamaxı Dövlət Aqrar İnkişaf Mərkəzində üzümçü fermer və sahibkarlar üçün "Üzümçülükdə innovativ diferensial texnologiyalar və risklər" mövzusunda elmi-praktik seminar keçirilib. Seminar çərçivəsində Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun alimləri tərəfindən hazırlanmış kitabın təqdimatı olub.

Aqrar Elm və İnnovasiya Mərkəzinin Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun direktor əvəzi, aqrar elmlər üzrə elmlər doktoru Vüqar Səlimov bildirib ki, Azərbaycanda üzümçülüyün elmi əsaslarla inkişafını təmin etmək məqsədilə aparılan tədqiqatlar nəticəsində ərsəyə gələn yeni nəşrdə Azərbaycanın torpaq-iqlim şəraiti nəzərə alınaraq üzümlüklərin salınması üçün torpaq sahələrinin seçilməsi, əkinə hazırlıq zamanı həyata keçirilən tədbirlər, üzümün innovativ becərilmə texnologiyası, əsas xəstəlik və zərərvericiləri, onlara qarşı müasir inteqrir mübarizə üsulları, qida maddələrinin çatışmazlığından üzümdə yaranan xəstəliklər və onların aradan qaldırılması yolları, üzümün inkişaf və boy atmasına, məhsuldarlığına və məhsulun keyfiyyətinə torpaq-iqlim şəraitinin təsiri və s. amillər haqqında müfəssəl məlumatlar yer alıb: "Kitabda həmçinin üzümün becərilməsi və üzüm-şərab istehsalı ilə məşğul olan müəssisələrdə effektli istehsalın təşkili üçün qarşıya çıxan risklərin mənfi təsirlərindən sığortalanmaq məqsədilə preventiv tədbirlər, üzümçülük-şərabçılıq müəssisələrinin məruz qaldığı müxtəlif növ risklər, təhlükələrin minimuma endirilməsi və neytrallaşdırılması üzrə üsullar öz əksini tapıb".

Fermerlərlə aparılmış müzakirədə üzümçülük sahəsində elmin son nailiyyətlərini özündə əks etdirən kitabın mühüm əhəmiyyətə malik olduğu vurğulanıb və şərabçılığa dair fikir mübadiləsi aparılıb.

Tədbirin sonunda kitab istehsalçılara pulsuz paylanıb.

Sonra Şamaxı rayonunun Məlcək kənd sakini Qurbanəli Babaşova məxsus üzüm bağında istehsalçılar üçün tarla şəraitində "Üzüm bitkisinə aqrotexniki qulluq işlərinin vaxtında yerinə yetirilməsi, xəstəlik və zərərvericilərə qarşı mübarizə tədbirləri və təhlükəsizlik qaydalarına əməl olunması" mövzusunda təlim keçirilib və mövsümi aqrotexniki, aqrokimyəvi, inteqrir mübarizə tədbirlərinin aparılması barədə istehsalçılara praktiki məlumatlar verilib.

# Cəbrayıl kəndlisinin əkib-becərmək əzmi itməyib

Uzun illərdən bəri yurd həsrəti ilə yaşayan, doğma Qarabağı azad etmək üçün savaşa atılmağa belə hər an hazır olan cəbrayıllı soydaşlarımız məcburi köçkün kimi hazırda respublikanın 54 şəhər və rayonunda məskunlaşmışlar.



Foto A.MƏMMƏDOVUNDUR

Rayon əhalisinin böyük əksəriyyəti Biləsuvar rayonu ərazisində inşa edilmiş məcburi köçkün qəsəbələrində yaşayır. Onların problemlərinin öyrənilməsi və həllinə kömək göstərilməsi üçün Cəbrayıl Rayon İcra Hakimiyyəti davamlı və məqsədyönlü iş aparır. Bu məqsədlə rayon əhalisinin kompakt yaşadığı ərazilərdə bu ilin altı ayı ərzində 24 səyyar görüş-qəbul keçirilmişdir. Bütövlükdə 950 nəfər rayon sakininin iştirak etdiyi bu görüş-qəbullarda əhalini narahat edən məsələlərlə bağlı 129 təklif səslənmişdir.

Bunlara diqqətlə yanaşan rayon rəhbərliyi qaldırılan problemlərin böyük əksəriyyətinin operativ surətdə aradan qaldırılmasına nail olmuş, rayonun imkanları xaricində olan məsələlərin həllinə kömək göstərilməsi üçün isə aidiyyatı orqanlara müraciətlər ünvanlamışdır.

Dövlət qayğısının məntiqi nəticəsidir ki, məcburi köçkün qəsəbələrindəki əhalinin fasiləsiz elektrik enerjisi, qaz, içməli və suvarma suyu ilə təminatı yüksək səviyyədədir. Əhalinin təklifləri əsasında 1856 ailənin yaşadığı 5 qəsəbəyə mərkəzi anbardan su nəql edən 1507 metr uzunluğunda boru xəttinin dəyişdirilməsi ən qısa zaman ərzində başa çatdırılmışdır. Hazırda 5 qəsəbənin daxili içməli su xəttinin yenidən qurulması ilə bağlı işlər sürətlə davam etdirilir.

Qaçqın və məcburi köçkünlərə qayğının daha bir təzahürüdür ki, Dünya Bankının və Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun maliyyə dəstəyi ilə Biləsuvar rayonu ərazisində 2003-cü ildə inşa edilmiş, 2598 evdən ibarət 6 qəsəbənin daxili yollarının əsaslı təmir edilməsi bu bölgədə yaşayan hər kəsdə razılıq və məmnunluq doğurur. Yol təmiri işləri hazırda zərbəçi ahənglə davam etdirilir.

Bu ilin əvvəlində fəaliyyətə başlamış "Azərxalça" ASC-nin Cəbrayıl filialında hazırda 70 nəfərə yaxın qadın çalışır. Bu sosial layihə evdar qadınların işlə təmin olunması baxımından təqdirəlayiqdir. Dövlətin qayğısı sayəsində həm Qarabağın milli xalçaçılıq ənənəsi yaşadılır, həm də çox sayda evdar qadın faydalı məşğulluğa cəlb edilir.

Prezident İlham Əliyevin kənd təsərrüfatında ənənəvi sahələr olan pambıqçılığı, baramaçılığı inkişaf etdirmək barədə tapşırıq və tövsiyələri məcburi köçkün həyatı yaşayan Cəbrayıl kəndlisini də ruhlandırmışdır. Rayon əməkçiləri 2016-cı ildən başlayaraq məskunlaşdıqları ərazilərdə pambıq əkininə start vermiş, baramaçılığın inkişafı üçün etibarlı yem bazası yaratmaq məqsədilə zəruri tədbirlər görmüşlər. 2016-cı ildə 34 hektarda pambıq əkən rayon sakinləri cari ildə pambıq əkini sahələrini 3 dəfə genişləndirərək 102 hektara çatdırmışlar. Hazırda tarlaların becərilməsi yüksək aqrotexniki qaydalar əsasında davam etdirilir, məhsul bolluğuna etibarlı zəmin yaradılır. Çəkilən zəhmət, axıdılan alın təri təbii ki, hədər getmir, öz bəhrəsini verir. Əgər üç il əvvəl pambıq tarlalarının məhsuldarlığı 17,3 sentner idisə, keçən il orta hesabla hər hektardan 34,5 sentner "ağ qızıl" götürülmüşdür. Builki hədəf isə məhsuldarlığı 40 sentnerə çatdırmaqdır.

Cəbrayıllı kümçülər də qabaqcıllıq nümunəsi göstərirlər. Keçən il 1,4 ton barama tədarük edən rayon əməkçiləri cari ildə 4,8 ton barama istehsal edərək, 3 dəfədən çox artıma nail olmuşlar. Baramaçılıq üçün etibarlı yem bazası yaratmaq məqsədilə son 3 ildə bütövlükdə 47,5 min ədəd məhsuldar sortlu çin tut tingi, 64 min ədəd isə yerli tut tingləri əkilmişdir. Bu isə o deməkdir ki, növbəti illərdə də barama istehsalı yüksək templə artacaqdır. Çünki bu gəlirli sahəyə maddi maraq da böyükdür. Bu il Cəbrayıl baramaçısının gəliri 45 min manat olmuşdur.

Əkin sahələri məhdud olsa da Cəbrayıl kəndlisinin qurub-yaratmaq əzmi böyükdür. Işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndinin ərazisinə daxil olan 242,2 hektar torpaq sahəsi rayonun əkin dövriyyəsinə daxil edilmişdir. Bu il rayonda 10185 ton taxıl istehsal edilmiş, məhsuldarlıq 34,2 sentner olmuşdur. 140 hektar təkrar qarğıdalı sahəsindən də bol məhsul gözlənlir. Indi rayonun şəxsi təsərrüfatlarında 10765 baş iribuynuzlu heyvan, 111854 baş qoyun-keçi vardır. Cari ilin birinci yarısında heyvandarlar 4,218 ton süd, 541 ton ət, 2 milyon 630 min ədəd yumurta istehsal etmişlər.

Dövlət başçısının "Əhalinin özünəməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" sərəncamına uyğun olaraq keçən il 36 ailəyə 72 baş damazlıq inək, 11 ailəyə 44 baş kökəltmə istiqamətli dana, 59 ailəyə isə 1239 baş damazlıq ana qoyun verilmişdir. Əhali tərəfindən razılıqla qarşılanan bu sosial layihə uğurla davam etdirilir.

Dövlətin davamlı qayğısı ilə əhatə olunan Cəbrayıl kəndlisi bolluq, firavanlıq yaratmaq əzmi ilə çalışır. Bu gün onlar yaxşı yaşasalar da, xoş güzəran sürsələr də ürəklərində torpaq, vətən adlı bir nisgil var. Qaysaq bağlamayan yaraların məlhəmi isə doğma yurdun torpağı, suyu, havasıdır. Bu həsrətə son qoymaq üçün onlar Ali Baş Komandanın əmrinə müntəzirdilər ki, silaha sarılıb döyüşlərə atılsınlar, Qarabağı azad etsinlər.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Kənd təsərrüfatının inkişafı ətraf mühitə ziyan vurmamalıdır

"BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) ilə əməkdaşlıq proqramı çərçivəsində həyata keçirilən AMAL layihəsi kənd yerlərinin inkişafına, gənclərin kənd təsərrüfatına olan marağının artırılmasına yönələn gözəl bir təşəbbüsdür. FAO olaraq biz də bu layihə çərçivəsində gənclərin müxtəlif biznes ideyalarının həyata keçirilməsi üçün maliyyə qurumlarına əlçatanlığının təmin edilməsinə çalışacağıq".

Bu sözləri FAO-nun Azərbaycandakı tərəfdaşlıq və əlaqələndirmə ofisinin rəhbəri Mələk Çakmak Oğuzda başlanan AMAL Akademiyası Yay Məktəbinin açılış mərasimində jurnalistlərə müsahibəsində deyib.

Gənclərin təqdim etdikləri layihələrin innovativ ideyalar olmasının, bu layihələrin kənd yerlərinin inkişafına töhfə verməsinin vacibliyini xüsusi vurğulayan FAO təmsilçisi bu sahədə bir çox dövlət qurumları ilə səmərəli əməkdaşlıq etdiklərini diqqətə çatdırıb: "Biz istəyirik ki, kənd təsərrüfatı iqlim dəyişikliklərinə görə artıq vacib hesab edilən transformasiyanı, dəyişməni reallaşdırsın. Biz kənd təsərrüfatı məhsullarını bundan sonra ətraf mühiti saxlayacaq, bərpa edəcək şəkildə istehsal etməliyik. Ona görə də gənclərin təqdim etdikləri layihələrin içərisində ətraf mühitin qorunub saxlanmasına və inkişafına töhfə verəcək innovativ ideyalar daha çox dəstəklənəcək".

# Füzulidə 1600 tondan çox pambıq istehsalı gözlənilir

Füzuli rayonunun pambıq tarlalarında son becərmə işlərinin aparılması ilə yanaşı, məhsul yığımına hazırlıq da görülür.

Rayon icra hakimiyyətinə istinadən AZƏRTAC-ın yaydığı məlumatda bildirilir ki, bu il 800 hektar sahədə çiyid səpilib. Əkinlərin 500 hektarı "P-Aqro" MMC, 300 hektarı "Azərpambıq" MMC ilə müqavilə əsasında becərilib. Yüksək məhsul əldə etmək üçün əkin sahələrində aqrotexniki becərilmə qaydalarına ardıcıl və düzgün əməl olunub, cərgələrarası becərmələr, alaq otlarına və zərərvericilərə qarşı kimyəvi mübarizə tədbirləri vaxtında aparılıb, bitkilər tələbata uyğun optimal müddətdə mineral gübrə və suvarma suyu ilə təmin edilib.

Artıq sahələrdə becərmə işləri başa çatmaq üzrədir. Pambıqçılar hazırda məhsulun vaxtında və itkisiz yığılması üçün tədbirlər görürlər. Rayonda pambıq yığımına 1500 nəfərə yaxın işçi qüvvəsi, həmçinin 10 pambıqyığan kombayn cəlb ediləcək. Bütün texnikalar, o cümlədən traktor və qoşqular yığıma hazırdır.

Yaxın günlərdə yığım başlanacaq. Mütəxəssislərin ilkin hesablamalarına görə, bu il Füzulidə 1600 tondan çox pambıq istehsalı gözlənilir.

# Dövlətdən fermerlərə növbəti güclü dəstək

## Aqrar sığorta məhsul istehsalçılarını ziyandan qoruyan "çətir" olacaq

*Əvvəli 1-ci səh.*

Sonda diqqətçəkən bütün üstün təcrübələr nəzərdən keçirilərək Azərbaycan üçün məqbul olan model hazırlanmışdır.

Belə diqqətlə hazırlanan aqrar sığorta mexanizmi uğurlu model kimi bütünlükdə aqrar sektorun inkişaf səviyyəsinə təsir etmək gücünə qadirdir. Aqrar sahənin şaxələnməsində və sürətli inkişafında maraqlı olan hökumət başa düşür ki, həm ölkənin valyuta bazarında sabitliyi qorumaq, həm ərzaq təhlükəsizliyini təmin etmək, həm də idxaldan asılılığı azaltmaq üçün kənd təsərrüfatı məhsullarının istehsalı artmalıdır. Bu artımı stimullaşdırmaq və risklərdən qorumaq üçünsə aqrar sığorta işləməlidir.

Amma sirr deyil ki, indiyəcən Azərbaycanda aqrar sektorda sığortaya nə müvafiq qurumlar ciddi maraq göstərir, nə də fermerlər risklərin aradan qaldırılması ilə bağlı yeniliklərə can atırlar. Ən böyük problem isə kiçik pay torpaq sahiblərinin və fermerlərin böyük əksəriyyətinin sığorta sistemi və onun üstünlükləri haqqında təsəvvürə malik olmamalarıdır. Tanıdığımız fermerlərin bir çoxu təbii fəlakətlərdən azı bir neçə dəfə ziyana düşüb, amma heç kimin ağlına gəlməyib ki, məhsullarını ziyandan sığortalasınlar.

Yeni qəbul olunan "Aqrar sığorta haqqında" qanun məhz belə boşluqları aradan götürmək üçün dövlətin atdığı mühüm addımdır. Qanunda aqrar sahədə risklərin müştərək sığorta mexanizmi vasitəsilə sığortalanması, fermerlərlə sığorta şirkətləri arasında münasibətlərin tənzimlənməsi, aqrar sığortanın hüquqi, iqtisadi və təşkilati əsasları müəyyən olunur. Qanun aqrar sığorta sahəsində dövlətin vəzifələrini də müəyyənləşdirir. Bura aqrar sığorta risklərinin müəyyənləşdirilməsi, sığorta sahəsində dövlət siyasətinin istiqamətlərinin təyin edilməsi, normativ hüquqi aktların qəbulu və stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi aiddir.



Kənd təsərrüfatı bitkiləri və bitkiçilik məhsulları, kənd təsərrüfatı heyvanları və kənd təsərrüfatı məqsədilə yetişdirilən heyvanlar, akvakultura məhsulları sığortanın predmeti sayılır. Lakin istehsalı, emalı, idxalı və dövriyyəsi qadağan edilən kənd təsərrüfatı məhsulları, habelə karantin və məhdudiyyət tədbirləri tətbiq edilən ərazidəki və ya xəstə kənd təsərrüfatı heyvanları, akvakultura məhsulları aqrar sığortanın predmeti olmayacaq.

Qanunda aqrar sığorta üzrə təminat verilən risklərə aşığıdakılar aiddir: təbii fəlakətlər, yanğınlar, bitki xəstəlikləri və zərərvericilər, yoluxucu xəstəliklər və zəhərlənmələr, vəhşi heyvanların hücumu və xüsusi təhlükəli ziyanvericilərin yayılması və s. Amma aqrar sığortalının sığorta hadisəsinin baş verməsinə qəsdən yönəldilmiş qanunazidd hərəkətlər aqrar sığortanın riski sayıla bilməz.

Qanunda aqrar sığortanın tənzimlənməsini təmin edən məsələlər də nəzərdə tutulur. Bura sığorta haqqının hesablanması, ödənilməsi qaydası, güzəştlər, qismən sığorta, azadolma və gözləmə müddəti və s. qaydalar aiddir. Sənəddə həmçinin bildirilir ki, aqrar sığortanın həyata keçirilməsi üçün yaradılması nəzərdə tutulan aqrar sığorta informasiya sistemi dövlət informasiya sistemi sayılır. Qanun həmçinin risklərin qiymətləndirilməsini də tənzimləyir.

Dövlət başçısının fərmanı ilə ölkədə aqrar sığorta sisteminin təşkilini, inkişafını və dayanıqlılığını, habelə idarəedici qurumun formalaşdırılmasını təmin edən və onun fəaliyyətinə nəzarəti həyata keçirən Aqrar Sığorta Fondu da yaradılacaq. İlkin nizamnamə kapitalı bir milyon manat həcmində dövlət büdcəsinin vəsaiti hesabına formalaşacaq fondda ictimai əsaslarla fəaliyyət göstərən 5 üzvdən ibarət Himayəçilik Şurası təşkil olunacaq.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# ADAU-da təhsil almaq istəyənlərin sayı artır

Bu il Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) qəbul planı ilk mərhələdə 92,12 faiz dolub. 2019/2020-ci tədris ilində ADAU üçün ayrılmış 1485 yerdən 1368 yerə tələbə qəbul olunub. Bu, ADAU tarixində ən yüksək qəbul göstəricisidir.

Xatırladaq ki, ADAU-da tələbə qəbulu üzrə son ən yüksək göstərici 2018/2019-cu tədris ilində qeydə alınmışdır. Ötən il bu ali təhsil müəssisəsinə 1292 tələbə qəbul olmuşdur.

Yeni tədris ilində əyani və qiyabi şöbələr üzrə 54 ixtisas üzrə qəbul aparılıb. Qəbul imtahanlarının ilk mərhələsində 40 ixtisas üzrə qəbul planı tam dolub. İlk mərhələdə ADAU-nun kənd təsərrüfatı ixtisasları üçün nəzərdə tutulmuş yerlərin mütləq əksəriyyəti dolub ki, bu da abituriyentlər arasında aqrar ixtisaslara marağın artmasının göstəricisi sayıla bilər.

Qeyd edək ki, Azərbaycan Dövlət Aqrar Universitetində təhsilin stimullaşdırılması üçün ötən ildən başlayaraq bir sıra tədbirlər görülür. Ali məktəblərə qəbul imtahanlarında 400 baldan yuxarı toplamış və ADAU-nu seçmiş tələbələrə 100, 500 baldan yuxarı toplamış tələbələrə isə 200 manat əlavə təqaüd verilir. Eyni zamanda ADAU-da ingilis dilində təhsil alan tələbələrə əlavə olaraq hər ay 70, imtahan sessiyaları zamanı 6 fəndən maksimum nəticə göstərmiş tələbələrə isə 100 manat əlavə təqaüd verilməsi nəzərdə tutulur.

# AXA köməyə gəlir

Beyləqan Dövlət Aqrar İnkişaf Mərkəzində Aqrar Xidmətlər Agentliyinin (AXA) "Səyyar Xidmət" qrupu tərəfindən Füzuli, Beyləqan və ətraf rayonlardan olan mexanizatorlara bir sıra xidmətlər göstərilib.

Traktor və digər mexaniki nəqliyyat vasitələrini idarə etmək üçün 49 mexanizatorun etibarlılıq müddəti bitən sürücülük vəsiqələri yeniləri ilə əvəz olunub, kənd təsərrüfatı texnikaları qeydiyyata alınıb.

Sonda mexanizatorlara texniki təhlükəsizlik qaydaları və dövlət rüsumları barədə bukletlər paylanıb.

# Bir həftədə 57 rayonda 282 təlim

Bu ilin yanvar-avqust ayları ərzində Kənd Təsərrüfatı Nazirliyinin təhsil və təlim şöbəsi 1408 təlim keçirib. Təlimlərdə 24801 fermer və məhsul istehsalçısı iştirak edib.

20-23 avqustda Dövlət Aqrar İnkişaf mərkəzlərinin əməkdaşları tərəfindən yeni subsidiya qaydaları ilə bağlı 48 rayonda 4233 nəfərə 273 təlim keçirilib. Bundan başqa, Aqrar Xidmətlər Agentliyi, Aqrar Elm və İnnovasiya Mərkəzi tərəfindən 9 rayonda bitkiçilik, heyvandarlıq və kənd təsərrüfatı texnikası mövzularında keçirilən 9 təlimə 148 fermer cəlb olunub. Bununla da ötən həftə ərzində respublikanın 57 müxtəlif rayonunda 282 təlim keçirilib. Təlimlərdə fermer və məhsul istehsalçıları da daxil olmaqla ümümilikdə 4381 nəfər iştirak edib.

Qeyd edək ki, fermerlərə təlimlər nazirliyin tabeli qurumlarının mütəxəssisləri tərəfindən keçirilir və əsasən bitkiçilik, heyvandarlıq, texniki təhlükəsizlik qaydaları, aqrar sığorta və sair istiqamətləri əhatə edir. Təlimlərdə nəzəri biliklərin ötürülməsi ilə yanaşı, aqrotexniki və zootexniki qulluq qaydaları praktik nümayiş olunur. Praktiki məşğələlər bitkiçilik sahələri və heyvandarlıq təsərrüfatlarında keçirilir.

# Bu gün Ermənistan reallıqlara əsaslanan yanaşmadan deyil, ilhaqçı mövqedən çıxış edir

Avqustun 27-də Ermənistan Respublikasının xarici işlər naziri bu ölkənin Xarici İşlər Nazirliyinin mərkəzi aparatının, habelə diplomatik və konsulluq nümayəndəliklərinin rəhbərləri qarşısında çıxış edərək Azərbaycanın ünvanına tamamilə reallıqdan uzaq və danışıqların mahiyyətinə uyğun olmayan iddialar səsləndirdi. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsi bununla bağlı açıqlama yayıb.

Açıqlamada deyilir: "Bir daha vurğulamaq istərdik ki, Dağlıq Qarabağ Azərbaycan Respublikasının ayrılmaz hissəsi olub, hazırda onun ayrılmaz hissəsidir və bu gələcəkdə də belə olacaq. Bütün dünya birliyi bu həqiqəti tanıyır və birmənalı olaraq Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalını pisləyir. "Dağlıq Qarabağ xalqı" anlayışı yoxdur, Azərbaycanın bu bölgəsinin erməni və azərbaycanlı icmaları var. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün beynəlxalq səviyyədə qəbul edilmiş model, beynəlxalq hüququn norma və prinsiplərinə, BMT, ATƏT və digər beynəlxalq təşkilatların qərarlarına, ilk növbədə, BMT Təhlükəsizlik Şurasının məlum dörd qətnaməsinə əsaslanır. Dinc nizamlanma çərçivəsində konkret addımlar isə ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən irəli sürülüb və bu ilin 9 mart tarixli son bəyanatları da daxil olmaqla həmsədrlər tərəfindən dəfələrlə səsləndirilib.

Beynəlxalq miqyasda tanınmış multikultural cəmiyyətə sahib olan, çoxlu sayda müxtəlif etnik qrupların vətəni olan Azərbaycan dövləti bütün əzəli azərbaycanlı əhalini hazırda bu ölkənin yerləşdiyi ata-baba torpaqlarından qovan və üstəlik Azərbaycanın işğal olunmuş ərazilərində ən ifrat təzahürü Xocalı faciəsi olan dəhşətli etnik təmizləmə həyata keçirən monoetnik Ermənistanla heç bir müqayisəyə gələ bilməz.

Ermənistan XİN başçısının vətəndaşların öz iradələrini azad ifadə etməsini nəzərdə tutan xalqların öz müqəddəratını təyinetmə hüququna istinad edərək təmsil etdiyi ölkənin təcavüzkar niyyətlərinə hər hansı şəkildə haqq qazandırmaq cəhdləri nə beynəlxalq hüquqa, nə də sağlam məntiqə uyğun gəlmir. Həqiqətən hər hansı bir ərazinin əhalisinin bir hissəsinin hüquqlarını bu ərazinin əhalisinin digər hissəsinin hüquqlarını tamamilə pozaraq həyata keçirmək mümkün deyil.

Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı Azərbaycanın hazırda Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının hüquqları kütləvi şəkildə pozulub. Yalnız Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin Azərbaycan icmasının öz doğma yerlərinə təhlükəsiz qayıdışı və orada ləyaqətli yaşayışı ilə təməl hüquqlarının bərpasından sonra bu bölgənin sakinlərinin özünüidarəetmə hüquqlarının həyata keçirilməsi formaları üzrə konkret müzakirələr aparmaq mümkün olacaq.

Ermənistan xarici işlər nazirinin daxili auditoriyaya yönəlmiş son açıqlaması, Z.Mnatsakanyanın hər zaman çox canfəşanlıqla guya istədiyi, münaqişənin sülh yolu ilə həlli əvəzinə, onun kəskinləşməsi kimi çox təhlükəli tendensiyaya gətirib çıxarır.

Ermənistan artıq müəyyən etməlidir, sülh istəyir, yoxsa vəziyyətin gərginləşməsini?! Belə bir təsəvvür formalaşır ki, hazırkı Ermənistan rəhbərliyi münaqişənin həll olunmasına deyil, bilərəkdən vəziyyətin gərginləşməsinə üstünlük verir. Təəssüflə qeyd olunmalıdır ki, bu gün rəsmi Yerevan reallıqlara əsaslanan yanaşmadan deyil, ilhaqçı mövqedən çıxış edir. Lakin istənilən halda aydındır ki, Azərbaycan heç vaxt işğala əsaslanan status-kvo vəziyyəti ilə barışmayacaq. Bizim səbrimiz tükənməz deyil".

## Heydər Əliyev Mərkəzinin parkında estrada ulduzlarının konserti olub



Avqustun 26-da Heydər Əliyev Mərkəzinin parkında estrada ulduzlarının iştirakı ilə konsert keçirilib.

AZƏRTAC xəbər verir ki, konsertdə Əməkdar artist Miri Yusif, tanınmış müğənnilər Dilarə Kazımova, Səmra Rəhimli, Rauf Əhmədov, reperlər Elşad Xose və Qurd tamaşaçılara maraqlı proqram təqdim ediblər.

Hazırda Moskvada yaşayan populyar azərbaycanlı ifaçı Jony gecənin xüsusi qonağı olub və məşhur hitlərini səsləndirib.

Konsert proqramı tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

# Aprel şəhidlərinin övladlarının DSX-nin hərbi hissəsinə və sərhəd zastavasına ekskursiyaları təşkil edilib









Azərbaycan Sərhəd Mühafizəsinin 100 illik yubileyi (1919-2019) münasibətilə keçirilən silsilə tədbirlər çərçivəsində gələcək nəslin Vətənə, onun sərhədlərinə hörmət ruhunda tərbiyə edilməsi, onlarda hərbi-vətənpərvərlik ruhunun yüksəldilməsi, sərhədçi peşəsinə marağın artırılması məqsədilə Aprel döyüşləri şəhidlərinin 15-19 yaşlarındakı övladlarının Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının Xudat şəhərindəki hərbi hissəsinə və Xaçmaz rayonunun Xanoba kəndi ərazisində yerləşən sərhəd zastavasına ekskursiyaları təşkil edilib.

DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, ekskursiya müddətində iştirakçılar hərbi hissənin Heydər Əliyev İdeoloji Mərkəzini ziyarət edib, yaradılan şəraitlə tanış olublar. Onlara Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasət, Dövlət Sərhəd Xidmətinə göstərilən yüksək diqqət və qayğı barədə ətraflı məlumat verilib. Azərbaycan Sərhəd Mühafizəsinin 100 illik yubileyinə həsr olunmuş sənədli filmin nümayişindən sonra özfəaliyyət kollektivinin və Xaçmaz rayon Mədəniyyət Evinin incəsənət xadimlərinin konsert proqramı ilə çıxışları təşkil edilib.

***"Azərbaycan"***


**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun nəzdində olan Sosial Xidmət Müəssisələri tərəfindən istifadə ediləcək inventarların satın alınması ilə əlaqədar**

***açıq tenderə dəvət edir***

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**Tender 1 LOT üzrə keçirilir:**

Nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun nəzdində olan Sosial Xidmət Müəssisələri tərəfindən istifadə ediləcək inventarların satın alınması

**İştirak haqqı 400,00 (dörd yüz) manat**

| | |
|---|---|
| **VÖEN:** | **(DSMF)1300050781** |
| **Bank:** | **Dövlət Xəzinədarlığı Agentliyi** |
| **M/h:** | **AZ41NABZ01360100000000003944** |
| **VÖEN:** | **1401555071** |
| **Kod:** | **210005** |
| **SWIFT:** | **CTREAZ22** |
| **H/h:** | **AZ91CTRE00000000000002138206** |
| **Büdcə gəlirlərinin təsnifat kodu:** | **-142340** |
| **Büdcə səviyyəsinin kodu :** | **- 7** |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *podratçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **24.09.2019-cu il saat 18:00-a qədər** və tender təklifi ilə bank təminatı sənədlərini **27.09.2019-cu il saat 15:00-a qədər** Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **27.09.2019-cu il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

***QEYD:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***



**B İ L D İ R İ Ş**

**Sumqayıt Şəhər İcra Hakimiyyəti 2019-cu ildə avtomobil yollarının asfalt örtüyünün təmirinin satın alınmasının təkliflər sorğusu usulu ilə həyata keçirilməsini elan edir**

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 2019-cu il 11 sentyabr saat 17:00-a kimi qəbul olunur.

Təkliflər sorğusunun açılışı 2019-cu il sentyabr ayının 12-də saat 15:00-da Sumqayıt şəhəri, Azərbaycan prospekti, 9 ünvanında Sumqayıt Şəhər İcra Hakimiyyətinin kiçik zalında keçiriləcəkdir.

**Əlaqələndirici şəxs: Rəhimdil Əhmədov, Telefon: (018) 65-5-14-48**

***Tender komissiyası***


## İraqın şimalında daha yeddi terrorçu zərərsizləşdirildi

Türkiyə hərbi hava qüvvələri İraqın şimalında "Pəncə-3" əməliyyatının gedişində PKK terrorçu təşkilatının obyektlərini bombalamış, nəticədə yeddi terrorçu məhv edilmişdir. Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat vermişdir.

Məlumatda deyilir ki, "Pəncə-3" başlayandan bəri zərərsizləşdirilmiş terrorçuların sayı 22-yə çatmışdır. Bundan başqa, terrorçu təşkilatın atəş mövqeləri və sığınacaqları məhv edilmişdir. Türkiyə ordusu bu il mayın axırlarından bəri İraqda antiterror əməliyyatları keçirir. "Pəncə" adlı əməliyyatlar çərçivəsində PKK terrorçularının obyektlərinə havadan və qurudan zərbələr endirilir.

"Pəncə-1" əməliyyatı mayın 27-də İraqın Hakurk rayonunda başlamışdır. Ötən ay əməliyyatın miqyası genişləndirilmiş və o, "Pəncə-2" adı almışdır.

Avqustun 23-də əməliyyatın yeni mərhələsi elan edilmiş və "Pəncə-3" adlanan əməliyyat İraqın Sinat-Həftənin bölgəsini əhatə etmişdir. Əməliyyatın məqsədi Türkiyənin cənub-şərq sərhədinin təhlükəsizliyini təmin etməkdir.

## İran Makronun təkliflərini rədd etdi



Tehran nümayəndələri Fransa Prezidenti Emmanuel Makronun İranın raket proqramı ilə əlaqədar danışıqlar keçirmək təklifini rədd etmişdir. Bu barədə "Press TV" telekanalı İran hökumətindəki mənbəyə istinadən xəbər verir.

Mənbə telekanala bildirmişdir ki, İran raket proqramına münasibətdə mövqeyini dəqiq ifadə etmişdir: bu proqram müzakirə mövzusu deyil və ola da bilməz. Makronun bu məsələ üzrə regional danışıqlar keçirmək təklifinə də rədd cavabı verilmişdir.

Xatırladaq ki, ABŞ keçən il İranın nüvə proqramına dair beynəlxalq sazişdən çıxdıqdan sonra Tehranın raket proqramını da hədəfə almışdır. Lakin İran rəhbərliyi dəfələrlə bu proqramın nüvə sazişi ilə heç bir əlaqəsi olmadığını bəyan etmiş, bu mövzuda müzakirə açmağa hazır olmadığını bildirmişdir.






# Ermənistan ordusunda intihar və fərarilik halları çoxalıb

*Əvvəli 1-ci səh.*

Son məlumatların təhlili bir daha göstərir ki, qeyri-döyüş şəraitində itkilərin yaşanmasına əsas səbəb orduda xəstəliyin tüğyan etməsi, intihar, müxtəlif qəza və nizamnamədən kənar davranışlardır. Özü də bu kimi hallara əsas etibarilə müddətli həqiqi hərbi xidmətə çağırılmış gənclər məruz qalırlar. Ordudakı yüksək vəzifəli zabitlərin özbaşınalıqları, rüşvətxorluğu, nizamnamədən kənar və nalayiq davranışları müddətli xidmət edən əsgərlər arasında intiharla yanaşı, fərarilik hallarının sayının sürətlə artmasına səbəb olur. Ötən günlərdə Füzuli rayonu istiqamətində düşmən tərəfindən fərarilik etmiş hərbi qulluqçu Kazaryan Aro Xaykoviç hərbi bölmələrimizin sayıqlığı nəticəsində saxlanılıb. İlkin dindirilmə nəticəsində düşmən hərbçisinin fərarilik etməsinə səbəb xidmət etdiyi hərbi hissədə hökm sürən özbaşınalıq, hərbi qulluqçulara qarşı dözülməz və qeyri-insani münasibət olduğu müəyyənləşib. Göründüyü kimi, düşmən ordusunun bölmələrində ağır xidmət şəraitindən, təhqirlərdən və fiziki işgəncələrdən bezərək xidmət yerini özbaşına tərk edənlərin sayı artmaqda davam edir.

Elə buna görə Ermənistan ordusunda həlak olmuş əsgərlərin valideynlərinin Müdafiə Nazirliyi qarşısında keçirdikləri aksiyaların sayı da çoxalıb. Sonuncu belə etiraz aksiyasında onlar hərbi hissələrdə komandirlərin övladlarına etdikləri təzyiq və işgəncələrə son qoymalarını tələb ediblər.

Yerli mətbuatın verdiyi xəbərə görə, etirazçılar Ermənistan ordusunda özbaşınalıq və xaosun tüğyan etdiyini bildiriblər. Narazı əsgər valideynləri qeyd ediblər ki, qeyri-döyüş şəraitində itkilərin artması hərbi hissələrdəki xaosdan xəbər verir. Bunun nəticəsində əsgəri xidmətdən yayınma halları artıb. Cəmiyyətin orduya inamı yoxdur. Çünki xidmət keçənlərin əksəriyyəti evlərinə, ən yaxşı halda, əlil olaraq qayıdır. Hökuməti isə onların sonrakı taleyi maraqlandırmır.

Valideynlərdən Ağban Vardanyan bildirib ki, övladı bir il əvvəl məcburi olaraq Dağlıq Qarabağa hərbi xidmətə göndərilib: "Oğlum bu yaxınlarda hərbi hospitala yerləşdirilib. Hərbi hissənin komandir müavini tərəfindən vəhşicəsinə döyülüb. Həmin şəxs oğluma işgəncə verdikdən sonra onu boğaraq öldürmək istəyib".

Ermənistanın Müdafiə Nazirliyi psixoloji və ruhi travmadan əziyyət çəkən gəncləri də hərbi xidmətə göndərir. Erməni mediası yazır ki, elə Dağlıq Qarabağa həqiqi hərbi xidmətə göndərilən əsgər Mqer Arutyunyan bir neçə gündən sonra Xankəndi hərbi hospitalına aparılıb. Onun səhhətində ciddi problemlərin olduğu deyilir. Lakin konkret olaraq xəstəliyin adı açıqlanmır. Əsgərin valideynləri bildirirlər ki, 18 yaşlı Mqerin əsəb sistemində problem var. Buna baxmayaraq, psixoloji dispanserdə müalicə aldıqdan sonra Mqer hərbi xidmətə göndərilib: "Bununla bağlı müəyyən dairələrə məktub da ünvanlamışıq. Ancaq müraciətlərimizə cavab verilməyib. Onun psixoloji problemlərinin olması ilə bağlı sənədlər mövcuddur. Mənim oğlum xidmət edə bilməz".

Helsinki Vətəndaş Assambleyasının Vanadzor ofisindən bildirilir ki, orduda baş verən problemlərin kökündə rüşvət və korrupsiya dayanır. Ermənistan Təhlükəsizlik Xidmətinin keçirdiyi istintaq nəticəsində Müdafiə Nazirliyinin ehtiyacları üçün xərclənməli olan pulların mənimsənilməsi üzə çıxıb. İstintaq məlumatına görə, Müdafiə Nazirliyinin yüksəkrütbəli şəxsləri təchizatçı şirkətlə cinayət əlaqəsinə girərək dəyəri aşağı olan malları bağladıqları müqavilədə yüksək qiymətə göstərirlər. Məlumatda bildirilib ki, faktlarla bağlı cinayət işi açılıb, istintaq gedir.

Bütün bunlar müasir erməni ordusunun reallığıdır. Ermənilər özləri də etiraf edirlər ki, bu gedişlə ordularından əsər-əlamət qalmayacaq. Amma bu, var-dövlətini ordu hesabına artırmağa çalışan ölkə rəhbərliyini qətiyyən narahat etmir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov akademik Abel Məhərrəmova əzizi

**AZƏR SADIQOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Milli Məclisin komissiya sədri, Respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov akademik Abel Məhərrəmova əzizi

**AZƏR SADIQOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sumqayıtdan Zakir Fərəcov akademik Abel Məhərrəmova əzizi

**AZƏR SADIQOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi akademik Abel Məhərrəmova əzizi

**AZƏR SADIQOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı Mühəndislik Universitetinin rektoru, professor Havar Məmmədov ailəsi ilə birlikdə akademik Abel Məhərrəmova əzizi

**AZƏR SADIQOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*

***e-mail:***
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 9004**
**Sifariş 2810**
**Qiyməti 40 qəpik**